Azərbaycanda Amerika Ticarət Palatası

American Chamber of
AMCHAM
Commerce in Azerbaijan

# Azərbaycanda İşgüzar Mühitin Təkmilləşdirilməsinə dair Müşahidələr və Tövsiyələr

Sentyabr 2008-ci il

Azərbaycanda Amerika Ticarət Palatası

American Chamber of
AMCHAM
Commerce in Azerbaijan

# Azərbaycanda İşgüzar Mühitin Təkmilləşdirilməsinə dair Müşahidələr və Tövsiyələr

Nizami küçəsi 96, Landmark binası
AZ 1000 - Bakı, Azərbaycan
Tel.: (994 12) 497-13-33
Faks.: (994 12) 497-10-91
chamber@amchamaz.org
www.amchamaz.org

# Mündəricat


I. Qısa xülasə . . . . . 5

II. Vergitutmaları . . . . . 11
Şəxsi gəlir vergisi . . . . . 13
Sosial sığorta ödənişləri . . . . . 13
İkili vergidən azad edilmə . . . . . 14
Ödənilmiş verginin geri qaytarılması . . . . . 15
ƏDV-nin geri qaytarılması . . . . . 16
ƏDV-nin geri ödənilməsinin təmin edilməsi prosesi . . . . . 17
ƏDV ödəyiciləri üçün xüsusi ƏDV hesabları . . . . . 17
Vergi Məcəlləsi və digər qanunlar . . . . . 17
Özəl sektorun iştirakı . . . . . 18

III. Bankçılıq, maliyyə və sığorta . . . . . 19
Təhlükəsizliyin təmin edilməsi - zəmanət və girovlar . . . . . 20
Daxili Bank kreditlərinin təsdiqi . . . . . 21
Azərbaycanın yerli qiymətli kağızlarının
xaricdə yerləşdirilməsi . . . . . 22
İstiqrazların emissiyasında məhdudiyyətlər . . . . . 22
Manatın xarici ölkələrə köçürülməsi . . . . . 23
Xarici müəssisələr üçün manat hesabları . . . . . 23
Qiymətli kağızlar ilə əməliyyatlar . . . . . 24
Banklar vergi agentlikləri qismində . . . . . 24
Əlavə Maliyyə bazarları . . . . . 25
Yerli banklararası manat bazarının inkişaf etdirilməsi . . . . . 25
Xarici banklara ödənişlər üzrə gəlir vergisi . . . . . 25
Bank sindikatları /Əlavə zəmanəti təmin edən agentlər . . . . . 26
Sığorta - Maliyyə Xidmətlərinin (vergi) mahiyyəti . . . . . 27
Həyatın sığortalanması, bədbəxt hadisədən
sığortalanma, təqaüd əmanətləri . . . . . 27

IV. Gömrük . . . . . 29
Müntəzəm qaydada dialoqun aparılması . . . . . 30
Yeni Gömrük Məcəlləsi . . . . . 30

Ümumdünya Gömrük Təşkilatı ilə müzakirələr . . . . . . . . . . . . . . 31
Elektron sənədləşdirmə və anbarların yaradılması. . . . . . . . . . . . 31
Gömrük rəsmilərinin iş şəraitinin yaxşılaşdırılması . . . . . . . . . . . 32

V. Rabitə və İnformasiya Texnologiyaları . . . . . . . . . . . . . . . . 33
Müstəqil Tənzimləmə orqanı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 34
Özəlləşdirmə. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 35
Gömrük rüsumları . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 35
Əqli mülkiyyət hüquqları . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 36

VI. Əmək . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 37
Ödənişlərin səviyyəsinin azaldılması . . . . . . . . . . . . . . . . . . . . . 38
Sosial müavinətlər üçün ödənişlər üzrə
yuxarı həddin ləğv edilməsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 39
Müavinətlərin daha effektiv qaydada ödənişi
və daha az aktiv olan təftişin keçirilməsi . . . . . . . . . . . . . . . . . . 39
Tətil və məzuniyyətlərin qeydiyyatı. . . . . . . . . . . . . . . . . . . . . . . 40
İş vaxtından artıq görülən iş. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 40

VII. Turizm . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 43
Turizm operatorları üçün məlumatlandırma proqramı. . . . . . . . . 44
Vizanın alınması zamanı ləngimə . . . . . . . . . . . . . . . . . . . . . . . . 45
Hava limanından yola düşmə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 45
Hava limanında turizm məlumatlandırma məntəqəsi. . . . . . . . . . 46
Turizm inkişaf planı. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 46
Xarici dildə izahat işarələri. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 47
Azərbaycan əl işləri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 47
Turizm məlumatlarının toplanması . . . . . . . . . . . . . . . . . . . . . . . 47

VIII. Korrupsiya . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 49
Korrupsiya ümumilikdə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 50
"Inhisarçılıq" vasitəsilə korrupsiya. . . . . . . . . . . . . . . . . . . . . . . . 52
Məhkəmə sisteminin müstəqilliyi və toxunulmazlığı . . . . . . . . . . 53

# I Qısa xülasə

# Qısa xülasə

Azərbaycandakı Amerika Ticarət Palatası (AmCham) hesab edir ki, Azərbaycan Hökumətinin qeyri-enerji sektorunda müvafiq islahatlar üzrə təqdirəlayiq proqramları şəffaf rəqabətliyin dəstəklənməsi üçün daha çox sahələri əhatə etməlidir və nailiyyətlərin əldə edilməsi üçün daha sürətlə icra olunmalıdır. Biznes sektorunun səmərəli və vaxtlıvaxtında transformasiyası nəticəsində Azərbaycan üçün mənfəətin maksimuma çatdırılması baxımından Amerika Ticarət Palatası böyük əhəmiyyət kəsb edən qeyri-neft sektorunda artımın dəstəklənməsi üçün hökumət tədbirlərinin daha da inkişaf etdirilməsini və sürətlə genişləndirilməsini təkidlə dəstəkləyir. Azərbaycanın beynəlxalq bazarda rəqabətlik potensialı və xüsusilə öz regional qonşuları ilə rəqabət aparmaq potensialı ölkənin uğurlu inkişafının, rifahının və stabilliyinin ən yaxşı zəmanətidir. Biznes icmalarının Hökumətə məsləhətlərin verilməsindən və onun dəstəklənməsindən ibarət olan məqsədlərini yerinə yetirməyə davam edərək, Amerika Ticarət Palatası Ağ Sənədin 2008-ci il üzrə təkrarını hazırlamışdır.

Biz inanırıq ki, neft və qaz satışından əldə olunan gəlirlərdən əhəmiyyətli dərəcədə asılılıq təhlükəsindən daha səmərəli qaydada qorunan Azərbaycan üçün dayanıqlı iqtisadi təhlükəsizlik və artıma doğru ən düzgün yol ölkə üçün orta müddətli və uzun müddətli inkişaf planının hazırlanması və ona riayət olunmasıdır. Bu kimi planın hazırlanması öhdəliyi hökumətin üzərinə düşür, lakin bu məqsədə hər bir millətin iqtisadi inkişafının əvəzolunmaz iştirakçısı olan biznes icmasının davamlı töhvəsi ilə nail oluna bilər. Bu prosesə yardım etmək üçün, Amerika Ticarət Palatası nazirliklər və ya daha yüksək səviyyədə ciddi müzakirələrin aparılması üçün müntəzəm toplantıların təşkil edilməsi üçün Hökumət/Biznes Şurasının ən qısa bir zamanda yaradılmasını dəstəkləyir. Bu Şuranın əsas məqsədi hökumətin maliyyə bələdçiliyini səmərəlik və xərclərə qənaət etməklə təkmilləşdirəcək rəqabətli biznes fəaliyyətinin və ya tədbirlərin icrasını təxirə salacaq və ya genişlənməsini ləngidəcək problemlərin araşdırılması, müəyyən edilməsi və həll yollarının təmin edilməsindən ibarət olmalıdır.

Biznes icmasının məsləhətləşmə prosesində daha tutumlu və səmərəli iştirakına doğru ilk vacib addım planlaşdırılmış qanunvericilik haqqında məlumatın sürətli və məhdudiyyətsiz yayılması və qanunvericilik və tənzimləmə bazasının beynəlxalq təcrübəyə uyğun olaraq təkmilləşdirilməsini təmin edəcək tənzimləyici tədbirlərin icra edilməsindən ibarətdir. Bu məqsədlərə nail olmaq üçün biz əsas funksiyası qanunvericiliyin mətninin ilkin vesriyasının Milli Məclisin birinci, ikinci və üçüncü oxunuşuna təqdim edilməsindən sonra həmçinin yekun variantının ictimaiyyət və xüsusilə də biznes və hüquq icmaları üçün təcili olaraq elektron qaydada təqdim edilməsindən ibarət olan Milli Məclis nəzdində qurumun yaradılmasını tövsiyyə edirik.

Beynəlxalq arenada qəbul edilmiş biznes təcrübələrinə riayət edən yerli və xarici biznes qurumlarını mükafatlandırmaqla yanaşı daha azad kommersiya fəaliyyətini dəstəkləyəcək və onun beynəlxalq arenada nüfuzunu düzgün, ədalətli və etibarlı ticarət tərəfdaşı kimi möhkəmləndirməyi dəstəkləyəcək sistemin yaradılması üçün hökumətə yardım etmək məqsədilə Amerika Ticarət Palatası aşağıdakı spesifik addımların icra olunmasını təklif edir:

## Vergitutmaları

- Şəxsi gəlir vergisinin dərəcələrinin qonşu MDB ölkələrində tətbiq olunan vergi dərəcələrinə uyğunlaşdırılması.
- Xarici işçilərdən sosial sığorta ödənişlərini həyata keçirmək tələbinin ləğv edilməsi.
- İkili vergilər haqqında Sazişə əsasən təyin olunan vergi ödəmələrinin asanlaşdırılması üçün ilkin gömrük rüsumlarının ödənilməsi prosedurlarının asanlaşdırılması; vergi inspektorları tərəfindən maliyyə vəsaitləri axtaran vergi ödəyicilərinə yüklü tələblərin təyin edilməsinə yol verilməməsi.
- İş adamları üçün vergi tutulan vəsaitlər faktiki olaraq alındıqda və ya ödənildikdə ƏDV-ni ödəmək və ya təyin etmək imkanının yaradılması; ƏDV üzrə ödənişin təmin edilməsi prosesinin ən səmərəli beynəlxalq təcrübələrə uyğun olaraq təkmilləşdirilməsi.
- Vergi müddəalarının, o cümlədən müvəqqəti tədbirlərin dəyişdirilməsinin yalnız Vergi Məcəlləsinə dəyişikliklər etməklə təyin edilməsi.

## Bankçılıq, Maliyyə və Sığorta

- Daşınan və daşınmaz əmlak üzrə vahid yeganə reyestrin yaradılması; təhlükəsiz əməliyyatlar üzrə yeni ətraflı qanunun qəbul edilməsi;
- Şirkət səhmlərinin 25%-dən artıq həcmdə olan əməliyyatların təsdiq edilməsi üçün Səhmdar Cəmiyyətin səhmdarlarının ümumi toplantısı üçün tələblərin banklara aid olmamasını təmin etmək üçün Mülki Məcəllənin dəqiqləşdirilməsi.
- Dövlət Qiymətli Kağızlar Komitəsi tərəfindən Azərbaycanın yerli qiymətli kağızlarının xaricdə yerləşdirilməsi üçün liberal qaydaların qəbul edilməsi.
- Bankların emissiyaçı tərəfindən emissiya oluna biləcək istiqrazların dəyəri ilə bağlı məhdudiyyətlərdən azad edilməsi üçün Mülki Məcəllənin dəqiqləşdirilməsi.

## Gömrük

- Amerika Ticarət Palatası Gömrük haqqında Məcəllənin yeni layihəsi ilə bağlı öz rəylərini verməkdən və biznes icmasına təsir göstərən məsələlər ilə bağlı Gömrük qurumu ilə açıq dialoqun aparılmasından çox məmnundur.
- Gömrük qurumu öz gömrük rüsumlarının səviyyəsini yaxın qonşularda tətbiq olunan dərəcələrə uyğunlaşdırmaqla və rüsumları ödənilməmiş mallar üçün anbarların ümummilli sisteminin yaradılmasının dəstəklənməsi vasitəsilə idxal-ixrac proseslərini asanlaşdırmalıdır.

# Qısa xülasə

## Rabitə və İnformasiya Texnologiyaları

- İnformasiya Texnologiyaları sektoru üçün müstəqil tənzimləyici orqanın təsis edilməsi.
- İnformasiya Texnologiyaları sektorunda mövcud olan bütün hökumət qurumlarının özəlləşdirilməsi və hökumətin həm də tənzimlədiyi sektorda kommersiya fəaliyyətindən kənarlaşdırılması.
- Azərbaycanın bu sahədə qoşulduğu bir sıra beynəlxalq sazişlərə müvafiq olaraq əqli əmlak hüquqlarının qorunması üçün öhdəliklərinin ciddi qaydada riayət olunmasının möhkəmləndirilməsi.

## Əmək

- Sosial Müdafiə ilə bağlı məsələlər: Ödəniş və müavinətlərin ödənilməsi; müavinətlərin vaxtlı-vaxtında ödənilməsi; işverənin sosial müdafiə fonduna olan ödəniş həcmlərinin 15%-ə, işçilərin ödənişlərinin isə 5% dərəcəyə qədər məhdudlaşdıraraq, aylıq gəliri 500 manat və daha az olanların gəlir vergisini və ya sosial müdafiə ödənişlərini ödəməmələri, lakin müavinətlərin toplanılması təmin edilməlidir.
- Məzuniyyətlərin qeydə alınmasının təqvim ili əsasında həyata keçirilməsinin təmin edilməsi üçün Əmək Məcəlləsinə düzəlişlərin edilməsi.
- İstənilən vəziyyətdə iş vaxtından artıq çalışmaq üçün ödənişlərin təkcə rəhbər və ya səriştəli işçilər üçün deyil səriştəsiz işçilər üçün də ödənilməsinin təmin edilməsi üçün Əmək Məcəlləsinə düzəlişlərin edilməsi.
- Bayram günlərinin sayının digər qonşu ölkələrdə mövcud olan bayram günlərinin sayına uyğunlaşdıraraq azaldılması.
- İnflyasiya və xərclərin artmasını nəzərə alaraq dövlət qulluqçularına ödənişlərin səviyyəsinin yenidən nəzərdən keçirilməsi.

## Turizm

- Elektron vizalar, ölkəyə enən təyyarələrdə giriş formalarının paylanılması, ölkəyə gələnlər üçün daha çox dildə danışan işçilərin və işarələrin təmin edilməsi, yüklər ilə bağlı məsələlərin daha səmərəli qaydada həll edilməsi və cəlbedici və müvafiq qaydada təşkil edilmiş taksi xidmətləri, mehmanxanaya nəqliyyat və şəhərə daha təhlükəsiz daşınmaların təmin edilməsi üçün icarəyə götürülən nəqliyyat vasitələri vasitəsilə Heydər Əliyev Beynəlxalq Hava Limanına girişin asanlaşdırılması.
- Mehmanxanalar, turizm məkanları, restoranlar, əl işləri, nələri etməli və nələri etməməli, valyuta mübadiləsi cədvəli, Azərbaycan dilində sadə ifadələr və digər məlumatlar haqqında çoxdilli turizm broşüraların hava limanının eniş köşklərində, mehmanxanalarda, muzeylərdə və digər müvafiq yerlərdə təmin edilməsi.
- Turizm Nazirliyi tərəfindən turizm sektorunun inkişaf etdirilməsi üçün

planların dəstəklənməsi üçün statistik məlumatların daha səmərəli şəkildə toplanılması üçün hava limanından, mehmanxanalardan və digər yerlərdən məlumatların Turizm Nazirlıyinə təqdim edilməsi.

## Korrupsiya

- Hər bir nazirlik Şəffaflığın Artırılması və Korrupsiya ilə Mübarizəyə Dair yeni Milli Strategiya ilə tələb olunduğu qaydada hər ilin dekabr ayının sonunda şəffaflığı necə artıracağını və korrupsiya ilə necə mübarizə aparacağını dəqiq müəyyən edərək təfərrüatlı və xüsusi qaydada müəyyən edilmiş tədbirlər planını tərtib və təqdim etməlidir.
- Anti-korrupsiya rejiminin müvafiq və səmərərli qaydada icra olunmasının təmin edilməsi üçün hüquq-mühafizə orqanlarına tələb olunan araşdırma vasitələrinin təmin edilməsi məqsədilə Azərbaycan qanunları və Cinayət prosessual məcəlləsinə düzəlişlər edilməlidir. Buraya anonim şikayətlərin təqdim edilməsi, məlumatı çatdıranların müdafiə olunması və korrupsiya ilə bağlı cinayətlərin araşdırılması və icra olunması ilə bağlı prosedurların dəqiq qaydada müəyyən edilməsi daxildir.
- Hökumət Şəffaflığın Artırılması və Korrupsiya ilə Mübarizəyə Dair yeni Milli Strategiyanın həmçinin dövlət qulluqçuları üçün yeni qəbul edilmiş etik məcəlləni tam olaraq maliyyələşdirməli və icra etməldir.
- Hökumət müstəqil, etikalı və professional kütləvi media vasitələrini təmin etməlidir və jurnalistlərin təqib olunmadan korrupsiya halları barədə azad şəkildə məlumat verməmələri üçün kütləvi media vasitələrinin azadlığı üçün güclü hökumət müdafiəsini təmin etməlidir.
- Hökumət ədalətsiz rəqabəti və maraqların toqquşmasını müəyyən edən və mənfi halların aradan qaldırılması üçün mexanizmləri müəyyən edən yeni Rəqabətlik haqqında Məcəlləni qəbul etməli və qüvvəyə minməsini təmin etməlidir.
- Məhkəmə qərarları ədalətli şəkildə və vaxtlı-vaxtında icra olunmalıdır. Bütün məhkəmə prosesləri və məhkəmə qərarları ictimaiyyət üçün açıq olmalıdır. Appelyasiya Məhkəməsi, Ali Məhkəmə və İqtisadi Məhkəmənin qərarları kütləvi media vasitələri və internet vasitəsilə ictimaiyyətə açıqlanmalıdır. Burada Avropa Şurasının məhkəmə müstəqilliyinə dair standartlarına tam qaydada riayət olunmalıdır.
- İlkin olaraq ABŞ tərəfindən alınan maliyyə hesabına yaradılmış qanunvericilik ilə bağlı məlumat bazası tam işlək vəziyyətdə olmalı və mütəmadi olaraq təzələnməlidir.

# Qısa xülasə

## Yekun

Hazırkı Ağ Sənəd Azərbaycanda şəffaf, rəqabətli və dayanıqlı biznes iqliminin yaradılması üçün hökumətin səylərinin səmərəliyinə töhvə verəcəyinə inandığımız tədbirlər ilə bağlı xüsusi məsləhətlərini təqdim edir. Biz inanırıq ki, bunlara riayət etməklə, Azərbaycan bazarında səmərəli qaydada fəaliyyət göstərən həmçinin əlverişli biznes mühitində inkişaf etmiş uğurlu şirkətin əlaməti olan beynəlxalq arenada səmərəli qaydada rəqabət edəcək effektiv və səmərəli müəssisələrin müəyyən vaxtdan sonra yaranmasının şahidi olacağıq. İlk öncə uğurlu milli biznes inkişafının nümunəsi olan, ikincisi Xəzər hövzəsi üçün lazımi regional dəstək qovşağı olan və ən sonda tanınmış və qibtə edilən qlobal rəqabətçi olan Azərbaycanın bu məqsədlərini nəzərə alaraq, Amerika Ticarət Palatası bu Ağ Sənəddə 2008-ci il ərzində biznes inkişafı ilə bağlı rəylərini hökumətə təqdim edir.

# II Vergitutmaları

# Vergitutmaları

Uyğunlaşdırılmış və rəqabətli vergi rejimi cəlbedici və əlverişli biznes iqliminin və ölkənin uzun müddətli inkişafının əsas elementidir. Bunu nəzərə alaraq, Amerika Ticarət Palatası öz rəy və təkliflərini nəzdində olan Vergi Komitəsi vasitəsilə müxtəlif hökumət orqanları ilə bölüşərək vergi qanunvericiliyinin təkmilləşdirilməsində çox fəal olmuşdur.

2005-ci ildə dərc edilmiş Ağ Sənəddə biz, vergi orqanları tərəfindən bir sıra əhəmiyyətli və arzuolunan dəyişikliklərin həyata keçirildiyini qeyd etmişdik. Lakin, biz onu da qeyd etmişdik ki, Amerika Ticarət Palatasının üzvləri müntəzəm olaraq vergi orqanlarının təqiblərinə məruz qaldıqları barədə məlumatlar verirlər. Biz həmçinin, qanunvericiliyin təkmilləşdirilməsi üçün bir sıra təkliflər irəli sürmüşdük. Bu təkliflərin çox az bir hissəsi qəbul edilmişdir. Bu səbəbdən də biz, Amerika Ticarət Palatası və onun üzvlərinin sağlam iqtisadiyyat üçün vacib saydıqları məsələləri bir daha müəyyən etmişik və ümid edirik ki, bu dəfə biz icra olunması əhəmiyətli olan islahat və dəyişikliklərin təmin olunmasında daha çox müvəffəqiyyət əldə edəcəyik.

Ağ Sənədin əvvəlki dərclərində müəyyən edilmiş biznesin inkişafına mane olan faktorlara vergiödəyici banklara dondurulma və ya "silinmə" sərəncamlarının göndərilməsinin tez-tez tətbiq olunması, vergi orqanlarından rəsmi sertifikatların alınmasının mürəkkəbliyi daxildir (misal üçün xarici vətəndaşlar üçün vergi qəbzlərinin təmin edilməsi). Bu isə yeni sərmayə yatırımlarının həvəsləndirilməsində əsas problem olaraq qalır. Fərdi olaraq, biz vergi orqanlarının bu kimi tədbirləri (a) vergiödəyicisi ilə məsələnin müzakirə edilməsi üçün ciddi səylər göstərmədən və (b) qanun ilə müəyyən edilmiş bildiriş müddətinin ötməsindən əvvəl "dondurulma" sərəncamlarını təyin edərək həyata keçirmələrini qeyd etmişdik. Biz, vergi orqanlarının vergiödəyiciləri ilə daha azad və açıq şəkildə əlaqə qurmalarını və dondurulma haqqında sərəncamları ilk öncə deyil son anda tətbiq etmələrini tövsiyyə edirik.

Bir neçə il ərzində, Amerika Ticarət Palatasının nəzdində olan Vergi Komitəsi vergi qanunvericiliyinin və idarəçiliyinin təkmilləşdirilməsində, vergi qanunvericiliyində dəyişikliklər ilə bağlı təklifləri təqdim edərək çox fəal iştirak etmişdir. Vergi Komitəsi Vergi Nazirliyi və digər nazirliklər ilə qarşılıqlı əlaqələrin gücləndirilməsi arzusundadır və vergi qanunvericiliyinin daha da təkmilləşdirilməsi üçün Azərbaycan Hökuməti ilə daha təfərrüatlı rəy və təkliflər ilə bölüşməyə hazırdır. Vergi orqanları tərəfindən biznes icmaları ilə ümumilikdə və Amerika Ticarət Palatası ilə fərdi olaraq müzakirələrin aparılması və onların cəlb edilməsi və biznesə münasibətdə daha əlverişli vergi mühitinin yaradılması üçün birgə məqsədlərin yerinə yetirilməsində hər hansı arzuların davamlı olaraq ifadə olunmasının şahidi olmamışıq.

Əvvəlki Ağ Sənədlərdə olduğu kimi, aşağıda təqdim edilmiş tövsiyyələrimiz Azərbaycanda vergiödəyicilərinin problemlərinin və onları narahat edən məsələlərin ətraflı təhlili məqsədini güdmür. Bundan başqa, biz Amerika Ticarət Palatasının və onun təmsil etdiyi iş adamlarının əhəmiyyətli saydıqları və gələcək irəliləyişin təmin edilməsi üçün müvafiq qaydada ünvanlandırılmalı məsələləri müəyyən edirik.

Həmçinin, onu da qeyd etmək lazımdır ki, əvvəlki illərdə olduğu kimi aşağıda təqdim edilmiş rəy və təkliflər BVF, USAİD və digər bu kimi beynəlxalq təşkilatlar ilə müzakirə edilmişdir.

## 01 Şəxsi gəlir vergisi

Vergitutmaları ilə bağlı güclü təzyiqə malik faktor şəxsi gəlir vergisi üçün tətbiq edilən təhrif edilmiş və qeyri-rəqabətli tarif strukturudur. Biz, 14%-ə bərabər aşağı gəlir vergisi tətbiq edilən illik gəlir həcminin 12 000 AZN-dən 24 000 AZN-yə qədər artırılmasını alqışlayırıq. Bu həvəsləndirici bir addımdır, lakin qeyd etmək istərdik ki, Azərbaycanda şəxsi gəlir vergisinin 35%-ə bərabər ən yüksək marja stavkası (24 000 AZN-dən artıq olan illik gəlirlər üçün tətbiq edilir) Rusiya, Gürcüstan, Ukrayna, Türkmənistan və regionun digər ölkələrində mövcud olan stavka səviyyəsindən əhəmiyyətli dərəcədə yüksəkdir (misal üçün Türkmənistanda bu göstərici 10%, Gürcüstanda 12%, Rusiya, Tacikistan və Ukraynada isə 13%-ə bərabərdir). Vergi yığımının əhəmiyyətli dərəcədə artmasının şəxsi gəlir vergisinin səviyyəsinin azalmasından sonra müşahidə olunması ilə bağlı güclü əsaslar mövcuddur.

Bizim zənnimizcə, gəlir vergisinin səviyyəsinin azaldılmaması Azərbaycanı xüsusən də qeyri-enerji sektorunda xarici sərmayələrin cəlb edilməsində daha az rəqabət qabiliyyətli edir. Gəlir vergisinin yüksək səviyyəsi sadəcə olaraq biznes fəaliyyətinin kölgəli iqtisadiyyatda qalmasını təmin edir və onun rəsmi sektora daxil olmasını mürəkkəbləşdirir. Gəlir vergisinin yüksək səviyyəsi həmçinin məşğuliyyətin təmin edilməsini də mürəkkəbləşdirir.

### Tövsiyə

Biz şəxsi gəlir vergisinin strukturunun  digər MDB ölkələrində orta göstəricisi 19%-ə bərabər vergi stavkalarına müvafiq olaraq yenidən nəzərdən keçirilməsini tövsiyə edirik. Bu isə ən yüksək marja stavkasının əhəmiyyətli dərəcədə azalması  və ya orta müddətli perspektivdə  daha çox mənfəət verəcək vahid fiksə edilmiş  stavkanın təyin edilməsi ilə nəticələnmiş olardı. Fərdi olaraq, Amerika Ticarət Palatası  təklif edir ki, yüksək stavka göstəricisi 35%-dən 20%-ə azaldılsın. Məşğuliyyətin həvəsləndirilməsi məqsədilə Amerika Ticarət Palatası  təklif edir ki, misal üçün  500 AZN-dən aşağı olan aylıq gəlir üçün "sıfır" dərəcəli vergi tətbiq olunsun.

## 02 Sosial sığorta ödənişləri

Biz hesab edirik ki, əmək qüvvəsinin cəlb edilməsi dəyərinin qiymətləndirilməsində şəxsi gəlir vergisi ilə yanaşı sosial təhlükəsizlik haqqları da nəzərə alınmalıdır. Böyük həcmli bu ödənişlər biznes sərmayələrinin və məşğuliyyətin həvəsləndirilməsi üçün əsas maneə olaraq qalır və sosial təhlükəsizlik haqqlarının (misal üçün xəstəlik üçün müavinatlar) böyük hissəsinin birbaşa olaraq işverənə həvalə edilməsindən bu

ödənişlərin həcminin azaldılmasını tövsiyə edirik.

Bununla yanaşı, 2005-ci il tarixli qanunun qəbul edilməsindən əvvəl işverənlərədən cəlb etdikləri xarici işçi heyət üçün sosial sığorta ödənişlərini həyata keçirmək tələb edilmirdi. 2006-cı ilin yanvar ayından etibarən yeni qanuna müvafiq olaraq işverənlərdən və işçilərdən yerli heyət üçün aylıq məvacibin 22%-ə bərabər, xarici işçi heyət üçün isə aylıq məvacibin 3%-ə bərabər sosial sığorta ödənişlərini həyata keçirmək tələb olunur. Nəzərə alaraq ki, Hasilatın Pay Bölgüsü Sazişinin podratçıları və bir çox qeyri-hökumət təşkilatları qeyd edilmiş sosial sığorta ödənişlərindən azaddır, əsas yük əsasən fəaliyyətlərinin inkişafı və genişləndirilməsi üçün ən böyük stimula ehtiyacı olan qeyri-neft sektorunda mövcud olan xarici sərmayələrin üzərinə düşür. Bununla yanaşı, xarici işçi heyət çox nadir hallarda Azərbaycanın sosial təhlükəsizlik sistemində mövcud olan müavinatlardan bəhrələnir və əksər hallarda onların korporativ işverənləri ölkə tərəfindən təmin olunan müavinatlardan daha yüksək müavinatlar təmin edir. Nəticə etibarı ilə xarici sərmayəçilər və onların işçiləri Azərbaycan sosial təhlükəsizlik haqqlarını ödəmələri nəticəsində heç bir imtiyaz əldə etmirlər. Bu səbəbdən də, biz xarici işçi heyəti sosial təhlükəsizlik ödənişlərindən azad etməklə 2005-ci il tarixli qanundan əvvəlki vəziyyətə qayıtmağı inadla tövsiyə edirik.

**Tövsiyə**

- İşverənlərin və işçilərin sosial təhlükəsizlik ödənişlərinin məcmu dəyərinin həcminin hazırkı 25%-dən 20%-ə endirilməsi.
- İşverənlərin və işçilərin xarici işçi heyət üçün sosial sığorta ödənişlərini ödəmək öhdəliyinin ləğv edilməsi. Təbii olaraq, xarici işçilər üçün Azərbaycanın təqaüd və digər sosial təhlükəsizlik müavinatlari tətbiq edilməyəcək, istisna hal işverən/işçi könüllü qaydada ödənişləri həyata keçirdiyi haldır.

## 03 İkili vergidən azad edilmə

Bizim təcrübəmizə əsasən vergi tutulduqda və Azərbaycan dövlət büdcəsinə ödənildikdə və sonradan vergiödəyicisi tərəfindən artıq ödənilmiş məbləğin geri qaytarılması tələb olunduqda artıq ödənilmiş vergilərin geri alınması həddindən artıq çətindir. Vergi orqanları tərəfindən vəsaitin geri ödənilməsi təsdiq edildikdə belə praktiki olaraq artıq ödənilmiş vergi çox nadir hallarda geri qaytarılır. Ödənilmiş ikili verginin geri alınması ilə bağlı tələblər çox zaman vergitutan qurumların vergi təftişi ilə nəticələnir, lakin, vergi agentliklərinin vergi mövqeyinin tutulmuş verginin geri qaytarılıb qaytarılmaması ilə uyğunluğu yoxdur. Amerika Ticarət Palatası bunu vergi rəsmilərinin səlahiyyətlərindən sui-istifadə etmələri kimi qiymətləndirir.

Bu reallıqlar Azərbaycanın vergi rezidentləri və qeyri-rezidentləri arasında həyata

keçirilən əməliyyatlara mənfi təsir göstərir. Misal üçün, qeyri-rezident təchizatçılar tərəfindən təmin olunan müxtəlif xidmətlər (misal üçün lizinq xidmətləri, idarəçilik və s.) ilə bağlı onlar yekdilliklə verginin tutulması üzündən həcmin azalmasının kompensasiya edilməsi üçün onların ödəniş haqqlarının artırılmasını tələb edir. Azərbaycanın rezident müştəriləri tutulmuş verginin "məcmu" ödənişlərinin geri ödənilməsinə səy göstərməkdə azad olduqları halda, xarici xidmətlərin dəyəri məbləğin geri ödənilməsi imkanı olmadığından daha xərcli olur və həcmin geri qaytarılması təmin edildikdə burada əhəmiyyətli gecikdirilmələr müşahidə olunur.

Bir çox ölkələrdə, o cümlədən Azərbaycanın qonşuları olan Rusiya və Qazaxıstan kimi MDB ölkələrində ikili vergi tətbiqindən azad olmaq üçün ilkin icazələrin alınması mümkündür. Sistem nisbətən sadə və effektivdir və bir çox hallarda ödənişin geri alınması üçün müraciət etmək ehtiyacını müəyyən etmir. Son zamanlar Vergi Nazirliyi tərəfindən 19 noyabr 2007-ci il tarixində dərc edilmiş dividentlərdən, imtiyazlardan və digər maraqlardan əvvəlcədən azad olmaq üçün müraciətin təqdim edilməsinə imkan verən vergi tətbiqinin idarəçiliyinə dair qaydaların qəbul edilməsinə baxmayaraq vergiödəyiciləri üçün özü özlüyündə çox mürəkkəb olan yeni prosedurların praktiki dəyərini azaldan müxtəlif süni məhdudiyyətlər müəyyən edilmişdir.

**Tövsiyə**

Bizim tövsiyəmiz ondan ibarətdir ki, vergi orqanları vergidən azad edilmə üçün ilkin icazə prosedurlarını elə qaydada sadələşdirməli və genişləndirməlidirlər ki, bu prosedurlar hər hansı qeyri-rezident vergi ödəyicilərinə (və ya rezident vergitutan qurum) vergi orqanlarına mənbədə verginin tutulmasından azad edilmə üçün müraciət etmək imkanı versin. Bu kimi ilkin icazə ilə bağlı prosedurlar Avropa və MDB ölkələrinin əksəriyyətində səmərəli qaydada təyin edilmişdir.

## 04 Ödənilmiş verginin geri qaytarılması

Azərbaycanın vergi haqqında qanunu ikili vergi yanaşmasına əsasən vergidən azad edilməni tələb etməyən vergiödəyiciləri üçün artıq ödənilmiş vergilərin geri qaytarılmasına dair mexanizmin ümumi təsvirini təmin edir. Vergi Məcəlləsinə müvafiq olaraq, ödənilmiş artıq vergi, faizlər və maliyyə sanksiyaları vergiödəyicisinin müraciət təqdim etdiyi tarixdən 45 gün ərzində vergiödəyicisinə geri qaytarılmalıdır. Son iki il ərzində Vergi Məcəlləsinə edilmiş düzəlişlər vergilərin geri qaytarılması və kompensasiya edilməsi üçün daha sərt qaydaları müəyyən etmişdir. Lakin, bu prosedurlar çox nadir hallarda praktikada tətbiq edilir.

Ümumilikdə, Azərbaycanda biznes fəaliyyətini həyata keçirən qurumlar onlara geri qaytarılmalı vergi həcmlərini gələcək vergi öhdəliklərini kompensasiya etmək üçün tükənənə qədər növbəti dövrlərə keçirməyə məcbur edilirlər. Hətta

kompensasiya prosesi çox gecikdirilir və vergi inspektorlarından tələb olunan tələblər inzibati baxımdan mürəkkəb və yüklü bir tələbdir. Bununla yanaşı, düzəliş edilmiş Vergi Məcəlləsinə müvafiq olaraq artıq ödənilmiş ƏDV-nin kompensasiya edilməsi və ya artıq ödənilmiş verginin geri qaytarılması üçün müraciət edildikdə növbədənkənar təftiş də həyata keçirilə bilər.

Bizim həmçinin şirkətlərin artıq ödədikləri ƏDV-nin geri ödənilməsi üçün səylər göstərdikləri və onların artıq ödənilmiş verginin geri ödənilməsi ilə bağlı tələblərinin pozuntu hallarının yol verildiyi bəhanə gətirilərək cərimə və sanksiyalar, əlavə sənədləşdirmə üçün təkrar və lazımsız tələblər və daha yüksək səviyyəli orqanlara heç bir nəticəsi olmayan sonsuz müraciətlər ilə nəticələndiyi barədə məlumatlarımız var.

**Tövsiyə**

Birincisi və ən başlıcası vergi inspektorlarından qanunun mahiyyət və qüvvəsinə riayət etməyi tələb etmək məqsədilə Hökumət və Vergilər Nazirliyi müsbət öhdəlikləri üzərinə götürməlidir. Vergi inspektorlarına artıq ödənilmiş verginin geri qaytarılmasını və ya kompensasiya edilməsini tələb edən vergiödəyiciləri üzərində hüquqi qaydada yüklü tələbləri təyin etmək səlahiyyətini verən qanun və qaydalara düzəliş edilməli və ya onlar ləğv edilməlidir.

## 05 ƏDV-nin geri qaytarılması

Mövcud ƏDV-nin təyin edilməsi sistemi (daxil olan ƏDV bu sistem vasitəsilə yalnız hesab faktura ödənildikdən sonra hesablana bilər) ƏDV-nin hesablanması mexanizmində qeyri-uyğunluq yaratmışdır. Spesifik olaraq bu sistem əməliyyat baş verən vaxt və ƏDV hesablanması tələb oluna biləcək vaxt arasında qeyri-uyğunluq yaradır. Bunun səbəbi isə ƏDV ödəyicilərindən satış üzrə ƏDV-nin ödənilməsinin hesablama prinsipi əsasında həyata keçirmələrinin tələb edilməsidir (yəni satış əməliyyatı üçün hesab-faktura təmin olunduqdan dərhal sonra); lakin alış üçün ƏDV hesablanması yalnız pul faktiki olaraq satıcıya köçürüldükdən sonra tələb oluna bilər. Bu sistem süni olaraq biznes fəaliyyətinin xərclərini artırmaqla yanaşı satıcılar üçün vergi fakturasını tərtib etməkdə stimul yaratmır, istisna hal pulların onlar tərəfindən alındığına əmin olduqları haldır. Bu isə ƏDV yığımına mənfi təsir göstərə bilər və alıcılar üçün əlavə kommersiya riskləri yarada bilər.

**Tövsiyə**

Biz tövsiyə edirik ki, ödənilməli və hesablanmalı ƏDV-nin həcmi nağd pul prinsipinə əsaslanmalıdır (yəni ƏDV pulları alındığı və ödənildiyi hallarda ƏDV ödənilə və ya hesablana bilər).

## 06 ƏDV-nin geri ödənilməsinin təmin edilməsi prosesi

ƏDV ödəyicilərindən ƏDV bəyannamələrini və digər əlavə sənədləri aylıq əsasda vergi orqanına təqdim etmək tələb olunur. ƏDV bəyannamələri blankı həmçinin əlavələr forması əsassız olaraq mürəkkəbdir. Mürəkkəb bəyannamələrin bir çox sənədlər ilə birgə təqdim edilməsi sistemi müxtəlif ölkələr tərəfindən müəyyən edilmiş və adətən vergiödəyicilərinə sadə, adətən bir səhifəlik heç bir əlavəsiz vergi bəyannamələrini təqdim etmək imkanı verən ƏDV prosedurlarına uyğun deyil. Ümumi təcrübəyə əsasən bəyannamələrin təqdim edilməsi zamanı bəyannamənin müvafiq qaydada doldurulub doldurulmaması və riyazi baxımdan dəqiq olub olmaması yoxlanılır. Bütün digər yoxlamalar/nəzarətlər vergiödəyicisinin fəaliyyət göstərdiyi məkanda audit zamanı həyata keçirilməlidir.

**Tövsiyə**

Azərbaycan ən səmərəli beynəlxalq təcrübələrə riayət etməlidir. ƏDV bəyannamələri sadə olmalı və ƏDV bəyannamələri ilə birgə çoxlu sayda sənədlərin təqdim edilməsi tələbi ləğv edilməlidir. Yoxlamalar/nəzarətlər vergiödəyicisinin fəaliyyət göstərdiyi məkanda audit zamanı həyata keçirilə bilər. 2008-ci ilin əvvəlindən təyin edilmiş yeni ƏDV mühasibatlığı, dəstəklədiyimiz nağd pul prinsipinə əsaslanan yanaşma və daha sadələşdirilmiş vergi bəyannamələri çox çətin ki, hər hansı vergi itkiləri ilə nəticələnsin.

## 07 ƏDV ödəyiciləri üçün xüsusi ƏDV hesabları

1 yanvar 2008-ci ildən etibarən təyin edilmiş xüsusi ƏDV hesabları biznes icması arasında böyük narahatçılığa səbəb olmuşdur. Bu təyinatın nə qədər effektiv olacağı barədə hər hansı bir söz söyləmək hələ tezdir, lakin Amerika Ticarət Palatası öz üzvlərinin narahatçılıqlarını bildirməyi özünə borc bilir. Fərdi olaraq Amerika Ticarət Palatasının üzvləri ƏDV-nin ödənilməsi ilə bağlı qanuni tələblərin vergi orqanları tərəfindən nəzərə alınmayacağından narahatdırlar.

## 08 Vergi Məcəlləsi və digər qanunlar

Azərbaycan Hökuməti ətraflı vergi məcəlləsini qəbul etmişdir. Bunun arxasında duran əsas ideya bu məcəllənin vergi orqanlarının işinin asanlaşdırılması ilə yanaşı vergiödəyicilərinə və Azərbaycanın vergi sistemində maraqlı olan digər tərəflərə əhəmiyyətli dərəcədə yardım edəcək bütün aspektləri əhatə edən vergi qanunu qismində müəyyən edilməsindən ibarətdir. Bir qanuna daxil edilmiş vergi ilə bağlı

bütün müddəalar olduğu halda qanunun müxtəlif müstəqil qaydalarına istinad etməyə ehtiyac yoxdur.

Lakin, hökumət fərmanlar və nazirlik səviyyəsində qərarlar vasitəsilə vergi müdəalarına daha çox istinad edir. Bu kimi təcrübələr Parlamentdə hüquqi dəyişikliklərin müəyyən edilməsi və qəbul edilməsi üçün tələb olunan qədər çox zaman almadığı halda bütün aspektləri əhatə edən vergi qanunun təyin edilməsinin fərdi olaraq sadəlik və şəffaflıqdan ibarət əsas məqsədinə zərər yetirir.

### Tövsiyə

Biz, təkidlə tövsiyə edirik ki, bütün vergi müddəaları, o cümlədən müvəqqəti tədbirlər xarakterini daşıyan qaydalar yalnız Vergi Məcəlləsinə dəyişikliklər etmək vasitəsilə müəyyən edilsin/dəyişidirilsin.

## 09 Özəl sektorun iştirakı

Biznes fəaliyyətləri müxtəlif vergiödəyiciləri, mallar üzrə vergiləri yığan agentliklər və gəlir vergisini təyin edən tərəflər kimi vergi sistemində əhəmiyyətli rol oynayırlar. Onlar vergi siyasətinin və vergi qanununun tərtib edilməsində hökumətə dəyərli töhvələr verə bilər. Vergi Məcəlləsi ilk olaraq təyin edildiyi zaman Amerika Ticarət Palatası bu prosesdə aktiv rol oynamaqdan çox məmnun idi və o zaman, geniş miqyaslı ictimai məsləhətləşmələr və məlumatlar barədə hökumətə tövsiyələr vermişdr. Lakin, o vaxtdan etibarən biznes icması üçün ümumilikdə və Amerika Ticarət Palatası üçün fərdi olaraq bu cür əlaqələri davam etdirmək çox çətinləşmişdir. Bunun əsas səbəbi ondan ibarətdir ki, o vaxtdan sonra qanunvericilik layihəsi məsləhətləşmələr üçün ictimaiyyətə açıqlanmır. Qanunvericilik layihəsi Amerika Ticarət Palatasının bəzi üzvlərinə məxvi olaraq təqdim olunmuşdur ki, buda Amerika Ticarət Palatasının qanunvericilik layihəsini müzakirə etmək və müvafiq rəyləri təmin etmək imkanlarını məhdudlaşdırır.

### Tövsiyə

Biz tövsiyə edirik ki, Amerika Ticarət Palatası özəl sektorun nümayəndəsi olaraq  vergi siyasətinin və qanunlarının tərtib edilməsi prosesinə daha aktiv qaydada cəlb edilsin. Qanuvericilik layhəsi Milli Məclisə təqdim edildikdə paralel olaraq Amerika Ticarət Palatasının Vergi və Gömrük Komitəsinə qeyri-məxvilik əsasında təqdim edilsin.

# III Bankçılıq, Maliyyə və Sığorta

# Bankçılıq, Maliyyə və Sığorta

Sonuncu Ağ Sənədin dərcindən sonra biz bankçılıq, maliyyə və sığorta sektorunda əhəmiyyətli irəliləyişlərin əldə olunduğunu müşahidə etmişik və bunun üçün Hökumətin səylərini alqışlayırıq və onların bu istiqamətdə davam etdirilməsini və gücləndirilməsini dəstəkləyirik. Azərbaycan BVF-ni təsis edən Sənədin Maddə VIII ilə müəyyən olunan şərtlərinin yerinə yetirilməsi istiqamətində əhəmiyyətli irəlilyişlər əldə etmişdir və bu şərtlərin yerinə yetirilməsi Azərbaycan manatının tam dönərliyini, yəni köçürmələrdə məhdudiyyətlərin olmamasını təmin edəcək. Bununla yanaşı, Banklar haqqında yeni qanun bankçılıq sahəsində məxfilik qaydalarını dəqiqləşdirməyə və təkmilləşdirməyə yardım etmişdir və ödəniş sistemində islahatlar həyata keçirilmişdir.

Ümumilikdə müsbət inkişaf meyllərinə baxmayaraq, biz Azərbaycanın bank sisteminin və sığorta sənayesinin dayanıqlı inkişafının təmin edilməsinə yardım etmək üçün təcili diqqət yetirilməli sahələri müəyyən etmişik. Bəzi təkliflərin miqyası çox məhdud görünsə də, biz inanırıq ki, bu zahirən kiçik "texniki" dəyişikliklər minimum səylər göstərməklə bank, maliyyə və sığorta sektorlarını əhəmiyyətli dərəcədə gücləndirəcək.

## 01 Təhlükəsizliyin təmin edilməsi - zəmanət və girovlar

### Daşınmaz əmlak reyestri

Zəmanət və girovların effektiv qeydiyyat sisteminin Azərbaycanda kredit sənayesinin inkişaf etdirilməsi üçün böyük əhəmiyyət kəsb etdiyini təsdiq edərək, hökumət torpaq, binalar və digər daşınmaz əmlak üzərində mülkiyyət hüquqlarının qeydiyyatını həyata keçirən mərkəzi qeydiyyat orqanı olan Daşınmaz Əmlakın Dövlət Reyestrini təsis etməklə əhəmiyyətli struktur dəyişikliklərini həyata keçirmişdir. Faydalı olmaq üçün qeydiyyat orqanı effektiv şəkildə fəaliyyət göstərməlidir. Bizim qurumun üzvləri yekdilliklə qeydiyyat orqanının idarəçiliyinin və fəaliyyətinin zəif və korrupsiya halları ilə müşahidə olunduğu və adi rəsmi funksiyaların yerinə yetirilməsi üçün tələb olunan böyük həcmli qeyri-rəsmi ödənişlər barədə məlumat verir.

### Daşınar əmlak üzərində zəmanət üçün mərkəzi reyestrin olmaması

Qanun ilə nəzərdə tutulmasına baxmayaraq, daşınar əmlak üzərində zəmanət üçün mərkəzi reyestr hələ də fəaliyyət göstərmir. Bu isə yerli iqtisadiyyata birbaşa mənfi təsir göstərir. Bizim qurumun dünyanın bir çox yerlərində fəaliyyət göstərən bir sıra üzvləri öz məhsullarının kommersiya müştərilərinə satışını maliyyələşdirmək niyyətindədirlər. Azərbaycanda isə maliyyələşdirilən məhsul üzərində zəmanətin qeydiyyatını həyata keçirəcək mərkəzi reyestr olmadığından, bu şirkətlər burada bu fəaliyyəti həyata keçirməkdən çəkinirlər. Bunun nəticəsi olaraq, yerli bizneslər əhəmiyyətli maliyyə mənbələrindən istifadə etmək imkanlarından məhrum olur.

### Zəmanətə qoyulmuş və ya girova qoyulmuş əmlakın satışı

Mövcud olan Azərbaycan qanununa əsasən zəmanət və ya girovun qüvvəyə girməsi üçün, zəmanətə qoyulmuş və ya girova qoyulmuş əmlak ictimai hərracda satışa çıxarılmalıdır. Bu qeyri-çevik yanaşma təhlükəsiz kreditorlar üçün lazımsız xərclər və məhdudiyyətlər yaradır. Bunun nəticəsi olaraq, yerli və xüsusilə də xarici maliyyəçilər Azərbaycanda yerləşən əmlak ilə zəmanətli kreditləri ayırmaqdan və maliyyə vəsaitlərini borc verməkdən çəkinirlər. Bunu etmək niyyətində olduqda isə maliyyəçi qeyri-çevik və qeyri-effektiv sistem üzündən mövcud olan yüksək riskləri kompensasiya etmək üçün daha yüksək faiz dərəcələrini tətbiq edir.

**Tövsiyələr**

- Daşınmaz əmlakın dövlət reyestrinin idarəçiliyi və fəaliyyəti elə qaydada təkmilləşdiriləcək ki, daşınmaz əmlak üzərində mülkiyyət hüquqlarının qeydiyyata alınması təcili və dəqiq qaydada "qeyri-rəsmi" ödənişlər tələb edilmədən həyata keçiriləcək.
- Daşınar əmlak üzərində zəmanətlərin və digər mülkiyyət hüquqlarının reyestri mövcud olan qanun ilə tələb edildiyi qaydada yaradılmalıdır. Daşınmaz əmlakın Dövlət reyestrinin idarəçiliyi və fəaliyyəti təkmilləşdirildiyi təqdirdə biz daşınar və daşınmaz əmlakın yeganə vahid reyestrinin yaradılmasına dəstək göstərməyə hazırıq.
- Ümumilikdə, biz tövsiyyə edirik ki, etibarlı, effektiv və əsaslı olaraq sadə habelə qeyri-istehlakçı kommersiya əməliyyatlarına münasibətdə müasir maliyyələşdirmədə tələb olunan çevikliyə imkan verəcək sistemin təyin edilməsi üçün prioritet məsələ olaraq təhlükəsiz əməliyyatlar haqqında ətraflı qanun tərtib edilməli və qəbul edilməlidir. Vahid reyestrin yaradılması ilə yanaşı, yeni qanun ən azı zəmanətlərin qüvvəyə minməsinin ictimai hərrac vasitəsilə təmin olunması tələbini ləğv etməli və zəmanət qismində istifadə oluna biləcək mülkiyyət növlərini və mülkiyyət hüquqlarını dəqiqləşdirməli və genişləndirməlidir.

## 02 Daxili Bank kreditlərinin təsdiqi

Banklar haqqında yeni qanunun qəbul edilməsi mövcud Mülki Məcəllə ilə qeyri-uyğunluq yaratmışdır. Azərbaycanda banklar açıq səhmdar cəmiyyət kimi təsis edilmişdir. Mülki Məcəllənin 99.3 saylı Maddəsinə əsasən şirkətlərin xalis aktivlərinin 25 %-dən artıq dəyərdə olan açıq səhmdar cəmiyyətin əməliyyatları səhmdarların ümumi toplantısında təsdiq edilməlidir. Ümumi müddəa ümumilikdə bütün açıq səhmdar cəmiyyətlər, o cümlədən banklar üçün tətbiq oluna bilər. Lakin banklar haqqında qanunda, yüksək səviyyədə tənzimlənən və ciddi şəkildə nəzarət olunan bank sənayesi üçün xüsusi olaraq

müəyyən edilmiş müxtəlif tələblər əks etdirilmişdir. Banklar üçün tətbiq edildikdə 99.3 saylı Maddə anlaşılmazlıq yaradır və Banklar haqqında qanunun müvafiq qaydada tarazlaşdırılmış tələbləri ilə ziddiyyət yaradır.

**Tövsiyə**
Mülki Məcəllənin 99.3 saylı Maddəsinə düzəliş edilərək, onun banklar üçün tətbiq edilməməsi açıq şəkildə qeyd edilməlidir.

## 03 Azərbaycanın yerli qiymətli kağızlarının xaricdə yerləşdirilməsi

Azərbaycan qanunu Azərbaycanın yerli qiymətli kağızlarının xaricdə yerləşdirilməsini xüsusi qaydada tənzimləmir. Mülki Məcəllənin 1078-15.13 saylı Maddəsi ilə qiymətli kağızların xaricdə yerləşdirilməsinə dair qaydaların "müvafiq icra hakimiyyəti orqani" yəni Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən müəyyən edildiyi nəzərdə tutulsa da, bu qaydalar hələ də qəbul edilməmişdir. Qaydaların olmaması yerli borc qiymətli kağızlarının birbaşa xaricdə yerləşdirilməsinin mümkünlüyü ilə bağlı qeyri-müəyyənlik (və müvafiq olaraq hüquqi risklər) yaradır və bunun nəticəsi olaraq yerli qiymətli kağızlar bazarının inkişafını ləngidir.

**Tövsiyə**
Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi Azərbaycanın yerli qiymətli kağızlarının xaricdə yerləşdirilməsinə dair liberal qaydaları qəbul etməlidir.

## 04 İstiqrazların emissiyasında məhdudiyyətlər

Mülki Məcəllənin 1078-11.5 saylı Maddəsinə müvafiq olaraq (a) təsdiq edilmiş yalnız emissiya olunmamış və (b) emissiya olunmuş və ödənilməmiş istiqrazların məcmu nominal dəyəri emissiyaçının nizamnamə kapitalından və ya emissiyaçı tərəfindən istiqrazlar üzrə verilmiş təminatın dəyərindən artıq olmamalıdır. Bu isə Azəbaycan bankları tərəfindən istiqrazların ölkə daxilində və xaricində emissiyasına əhəmiyyətli məhdudiyyətlər yaradaraq onların beynəlxalq kapital bazarlarına çıxışına imkan vermək üçün böyük həcmli xərclər tələb edən kompleks strukturlaşmanın həyata keçirilməsini tələb edir.

**Tövsiyə**

Azərbaycan banklarının artıq xüsusi qanunvericlik, yəni Banklar haqqında Qanun ilə tənzimləndiyini nəzərə alaraq, Mülki Məcəllənin 1078-11.5 saylı Maddəsinə dəyişiklik edilərək onun banklar üçün tətbiq olunmayacağı açıq şəkildə qeyd edilməlidir.

## 05 Manatın xarici ölkələrə köçürülməsi

Hal-hazırda, Azərbaycan manatı Azərbaycandan kənara köçürülə bilməz. Bunun üçün qadağa olmasa da, bu Azərbaycanın valyutaya dair qanunvericiliyi ilə təyin edilmişdir. 2002-ci ildə Milli Bank xarici valyutanın xaricə köçürülməsini tənzimləyən Azərbaycanda rezidentlərin və qeyri-rezidentlərin xarici valyuta əməliyyatları ilə bağlı rejim haqqında Qaydaları təyin etmişdir. Lakin Milli Bank hələ də manatın xaricə köçürülməsi haqqında qaydaları təyin etməmişdir. Azərbaycan manatının xaricə köçürülməsinə dair liberal qaydalar onun tam dönərliyini təmin etmək üçün böyük əhəmiyyət kəsb edir.

**Tövsiyə**

Milli Bank Azərbaycan manatının xaricə köçürülməsinə dair liberal qaydaları təyin etməli və təsdiq etməlidir.

## 06 Xarici müəssisələr üçün manat hesabları

Azərbaycan banklarına Azərbaycanda nümayəndəliyi olmayan xarici müəssisələr üçün manat hesabları açmaq qadağan edilmişdir. Bu isə lazımsız məhdudiyyət yaradaraq, Azərbaycan banklarında manat hesabları açmaq arzusunda olan xarici sərmayəçilərdən, kapitalın idarə olunması ilə məşğul olan şirkətlərdən və hecirləmə fondlarından sadəcə olaraq yerli manat hesabı açmaq üçün mürəkkəb qiymətli kağızlar və xarici valyuta əməliyyatlarını həyata keçirməyi tələb edir.

**Tövsiyə**

Milli Bank yerli nümayəndəliyi olmayan xarici şirkətlərə Azərbaycan banklarında hesablar açmaq imkanı vermək üçün Azərbaycanda bank hesablarının açılmasına dair qaydalara düzəliş etməlidir.

## 07 Qiymətli kağızlar ilə əməliyyatlar

Qiymətli kağızlar ilə maliyyə əməliyyatları bir çox ölkələrdə risklərin idarə olunması üçün əhəmiyyətli amil sayılır. Azərbaycan banklarının, sığorta və digər maliyyə xidmətlərini təmin edən şirkətlərin riskləri daha səmərəli qaydada idarə etmək üçün qiymətli kağızlar ilə əməliyyatlardan bəhrələnmə imkanları ola biləcəcyi halda, Azərbaycan qanunu çox güman ki, təsadüfən qiymətli kağızlar ilə əməliyyatlar üçün risk yaratmışdır. Mülki Məcəllə, bizim fikrimizcə əsaslı olaraq, riskli əməliyyatlar ilə bağlı iddiaların qüvvəyə minməsini mümkünsüz etmişdir. Riskli əməliyyatlar hansısa iqtisadi məqsədləri güdməyən saziş kimi müəyyən olunur və bu sazişə müvafiq olaraq iştirakçılar ən azı qismən qeyri-müəyyənlikdən və ya təsadüfdən asılı olaraq mənfəət əldə edir və ya itkiyə məruz qalır. Buraya riskli mallar və ya qiymətli kağızlar ilə əməliyyatlar daxildir. Azərbaycan qanunu aydın şəkildə qiymətli kağızlar ilə əməliyyatları, o cümlədən tərəflərin nəzarətlərində olmayan riskləri üzərlərinə götürdükləri əməliyyatları təsdiq etdiyindən, qiymətli kağızlar ilə əməliyyatlar riskli əməliyyatlar kimi qiymətləndirilməməlidir. Riskli əməliyyatlar anlayşı ilə şərtlənən qeyrimüəyyənlik və mövcud olan risklər üzündən xarici maliyyə təşkilatları Azərbaycan tərəfdaşları ilə, o cümlədən banklar ilə qiymətli kağızlar əməliyyatlarını həyata keçirməkdən çəkinirlər.

### Tövsiyə

Törəmə əməliyyatları daha aydın şəkildə müəyyən etmək və riskli olmayan törəmə əməliyyatlarını təmin etmək üçün Mülki Məcəlləyə düzəlişlər edilməlidir.

## 08 Banklar vergi agentlikləri qismində

Hal-hazırda, Azərbaycan bankları hökumət üçün vergi yığan agentliklər kimi qiymətləndirilir və onlardan müştərilərinin vergi və sosial ödənişlər kimi digər ödənişlərinə nəzarət etmək tələb olunur. Müştəriləri bu kimi icbari ödənişləri həyata keçirməyən banklar üçün cərimələr tətbiq olunur. Bu isə Azərbaycan banklarının əməliyyatlarına lazımsız və böyük xərclər tələb edən yükdür.

### Tövsiyə

Beynəlxalq təcrübəyə müvafiq olaraq, Azərbaycan banklarının hökumət üçün vergi agentlikləri öhdəliyindən və müştərilərinin vergi ödənişlərinə nəzarət etmək tələbindən azad etmək üçün Vergi Məcəlləsinə düzəlişlər edilməlidir.

## 09 Əlavə Maliyyə bazarları

2001-ci ildən etibarən dərc etdiyimiz Ağ Sənəddə qeyd edildiyi kimi, qısamüddətli dövlət borcları (xəzinədarlıq veksellər), repo əməliyyatları və digər yerli borc vasitələri üçün Azərbaycanın maliyyə bazarları çox zəif inkişaf etmişdir. Bir çox səlahiyyətli dairələrdə xəzinədarlıq veksellər ən əlverişli bazarda faiz dərəcələrinin müəyyən edilməsi və yerli valyutanın artıq likvidliyinin təmin edilməsi üçün baza qismində istifadə edilir. Bu bazarlar həmçinin yerli bazarda artıq nağd pul likvidliyini absorbasiya edərək, inflyasiya təzyiqlərini azaldır.

**Tövsiyə**

Hökumət yerli kapital bazarlarının inkişaf etdirilməsi üçün yerli dövriyyəyə kifayət həcmdə manat istiqrazlarını emissiya etməli və onların dövriyyəsini təmin etməlidir.

## 10 Yerli banklararası manat bazarının inkişaf etdirilməsi

Vəsaitlərin beynəlxalq köçürmələrini tənzimləyən qaydaların təkmilləşdirilməsi üçün əhəmiyyətli addımlar atılsa da, yerli banklar arasında köçürmələri tənzimləyən qaydalar kifayət qədər deyil. Məsələn, yerli banklara hələ də digər Azərbaycan bankları ilə qısa müddətli bank münasibətləri qurmağa icazə verilmir. Bu məhdudiyyət üzündən, yerli banklara Azərbaycan manatı ilə olan əməliyyatların digər banklar vasitəsilə ödənişinin həyata keçirilməsi icazə verilmir. Bundan başqa, Azərbaycan Milli Bankı bu növ əmliyyatlarda inhisarçı mövqe tutur. Bu isə yerli banklararası manat bazarının inkişaf etdirilməsinə mane olur.

**Tövsiyə**

Milli Bank Azəbaycan banklarına Azərbaycan manatı ilə keçirilən əməliyyatların digər banklar vasitəsilə ödənilməsinə icazə vermək üçün təcili tədbirlər görməlidir.

## 11 Xarici banklara ödənişlər üzrə gəlir vergisi

Xarici banklara ödənilən faizlər və digər ödənişlər üzrə adətən 10% həcmində gəlir vergisi tətbiq olunur. Xarici kommersiya bankları yekdilliklə tutulan verginin kompensasiya edilməsi üçün yerli borcalanlar tərəfindən onlara ödənilən ödənişlərin uyğunlaşdırılmasını ("vergitutumunu nəzərə alaraq məbləğin yenidən

hesablanması") tələb etdiklərindən, xarici banklardan alınan vəsaitlərin dəyəri əhəmiyyətli dərəcədə artırılmışdır. Çox az sayda yerli bankların böyük layihələri maliyyələşdirmək imkanlarına malik olduqlarını nəzərə alaraq, Azərbaycan borcalanları ümumilikdə vergidən azad edilmiş çoxtərəfli təşkilatlardan borc almaq imkanı ilə məhdudlaşdırılırlar. Çoxtərəfli təşkilatlardan və xarici kommersiya banklarından alınan borclar arasında dəyər fərqinin aradan qaldırılması Azərbaycan borcalanları üçün əlavə maliyyə mənbəyinin açılmasını və borcun daha ucuz qiymətə alınmasını təmin etmiş olardı.

**Tövsiyə**
Xarici kommersiya banklarına ödənilən faizlər və digər ödənişlər gəlir vergisindən və digər vergilərdən azad olunmalıdır.

## 12 Bank sindikatları /Əlavə zəmanəti təmin edən agentlər

Hətta ən böyük Azərbaycan bankları belə Azərbaycanda maliyyə vəsaitləri tələb edən böyük sayda əhəmiyyətli layihələr üçün böyük həcmli kreditləri təkbaşına təmin edə bilmədiklərindən, yerli bankların əksəriyyəti bu layihələr üçün maliyyə vəsaitləri təmin etməkdən məhrum olunmuşdur. Bu vəziyyətin yaxşılaşdırılması üçün, 2003-cü ildə Azərbaycan Milli Bankı yerli banklara sindikatların təyin edilməsi və sindikatlaşdırılmış kreditlərin təmin edilməsi qaydalarını izah edən Banklar tərəfindən sindikatlaşdırılmış və müştərək kreditlərin ayrılmasına dair metodoloji təlimatı paylamışdır. Milli Bankın təqdirəlayiq səylərinə baxmayaraq, kreditin sindikatlaşdırılması üçün tələb olunan sindikat strukturları, əlavə zəmanət agentlikləri, zəmanət agentlikləri, ödənişi təmin edən agentliklər və ödənişi toplayan agentliklər kimi sahələri tənzimləyən qanunların olmamasından yerli sindikatlaşdırılmış kredit bazarı inkişaf etməmişdir. Qeyd edilmiş əlavə qanunvericilik olmadan, yerli sindikat bazarının inkişafı mümkün olmayacaq və yerli banklar bu mənfəətli və əhəmiyyətli bazarda iştirakdan məhrum olacaqlar və onların Azərbaycanın inkişafını maliyyələşdirmək imkanları məhdud olacaq.

**Tövsiyə**
Azərbaycan qanununda olan bu boşluğu aradan qaldırmaq üçün Mülki Məcəlləyə və digər qanunlara düzəlişlər edilməlidir.

## 13 Sığorta - Maliyyə Xidmətlərinin (vergi) mahiyyəti

Azərbaycanda beynəlxalq təcrübəyə müvafiq olaraq maliyyə xidmətləri ƏDV kimi bir sıra vergilərədən azaddır. Bir çox səlahiyyət dairələrində sığorta və təkrar-sığorta broker fəaliyyətləri də maliyyə xidmətləri sayılır. Azərbaycanda Vergi Məcəlləsinin 13.2.14.7 saylı Maddəsində sığorta və təkrar sığorta xidmətlərinin maliyyə xidmətləri olduğu aydın şəkildə müəyyən edilsə də, burada sığorta və təkrar sığorta broker fəaliyyətləri xüsusi olaraq qeyd edilmir. Azərbaycan vergi orqanları rəsmiləri bu qeyri-müəyyənlikdən istifadə edərək bu xidmətlərin Sığorta haqqında qanuna daxil edilməsinə baxmayaraq maliyyə xidmətləri olmadığını iddia edirlər. Bu qeyri-müəyyənlik sağlam sığorta sənayesinin əhəmiyyətli komponenti olan sığorta və təkrar sığorta broker fəaliyyətlərinin inkişaf etdirilməsini ləngitmişdir.

**Tövsiyə**

Vergi Məcəlləsinin 13.2.14.7 saylı Maddəsinə düzəliş edilərək, sığorta və təkrar sığorta broker fəaliyyətlərinin "maliyyə xidmətləri" olduqları xüsusi olaraq müəyyən edilməlidir.

## 14 Həyatın sığortalanması, bədbəxt hadisədən sığortalanma, təqaüd əmanətləri

Azərbaycan vətəndaşları üçün təqaüd dövrü üçün əmanət toplamaq imkanlarını təmin etmək məqsədilə Hökumət həyatın sığortalanmasını və pensiya bazarlarının inkişaf etdirilməsini dəstəkləməlidir. Günü gündən daha çox gənclər işə cəlb olunduğundan, onlara gələcək üçün əmanət toplamaq və planlar qurmaq üçün dəstək təmin edilməlidir. Daha inkişaf etmiş sığorta bazarlarında həyatın sığortalanması və pensiya fondları gələcək maliyyə ehtiyaclarının planlaşdırılması üçün vasitə kimi qəbul edilmişdir. Lakin, insanları bu kimi prinsipləri tətbiq etməyə həvəsləndirmək və həyatın sığortalanması və pensiya üzrə qurumların bu təminatı təmin etmələrini dəstəkləmək üçün fərdi şəxslər tərəfindən həyata keçirilən və sonradan bu şirkətlər tərəfindən sərmayə edilən ödənişlərin vergidən azad olunması kimi stimullar təmin edilməlidir.

**Tövsiyə**

Işçi tərəfindən təqaüd və pensiya planları üçün həyata keçirilən ödənişlərin habelə işverənin həyatın sığortalanması və ya bədbəxt hadisədən sığortalanma üçün ödədiyi ödənişlərin vergi tətbiq olunan gəlirdən ayrılmasını və bu planların ölkə daxilində və ya xaricdə təyin edilməsindən asılı olmayaraq gəlir vergisindən azad olunmasını təmin etmək üçün Vergi Məcəlləsinin 98.2.5 saylı Maddəsinə düzəliş edilməlidir.

# IV

## Gömrük

# Gömrük

Bizim 2005-ci il tarixli Ağ Sənəddə Dövlət Gömrük Komitəsi (DGK) "fərdi şirkətlərin spesifik problemlərinin həll edilməsində Hökumətin ən səmərəli qaydada reaksiya göstərən elementlərindən biri" kimi səciyyələndirilmişdir və Amerika Ticarət Palatası və DGK arasında uğurlu dialoqun qurulduğu qeyd edilmişdir. Həmin dövrdən sonra bizim münasibətlər zəifləyərək effektivliyini itirmişdir. Lakin biz, məmnuniyyət hissi ilə bildiririk ki, son zamanlar bizim münasibətlər yaxşıya doğru dəyişmişdir və DGK geniş miqyaslı islahatları və Ümumdünya Ticarət Təşkilatı, Avropa Birliyi və Amerika Ticarət Palatasının prinsiplərinə uyğun olan təkmilləşdirmə tədbirlərini aktiv qaydada həyata keçirir.

**İrəliləyiş əldə edilmiş və Amerika Ticarət Palatası üzvlərini narahat edən sahələrə aşağıdakılar daxildir:**

## 01 Müntəzəm qaydada dialoqun aparılması

Əvvəllər Amerika Ticarət Palatası və DGK palata üzvlərinin spesifik problemlərinin həll edilməsi üçün faydalı olan sıx-sıx aparılan müzakirələrdən bəhrələnirdi. Üç ildən çox müddətdən sonra, bu proses, son zamanlar DGK-nin ən yüksək səviyyəsində iştirakın təmin edilməsi ilə bərpa edilmişdir. Amerika Ticarət Palatasının aylıq əsasda təşkil etdiyi nahar yeməklərinin birində Sədr müavini cənab Mehdiyev palatanın üzvləri qarşısında çıxış edərək hal-hazırda DGK-də həyata keçirilən dinamik dəyişiklik və islahatlar prosesi barədə danışmışdır. Çıxışından sonra, cənab Mehdiyev palata üzvlərinin suallarını cavablandırmışdır; DGK-nin üç yüksək rütbəli rəsmiləri nahar yeməyindən sonra fərdi üzvlər ilə gömrük ilə bağlı məsələləri müzakirə etmək üçün fərdi görüşdə iştirak etmişlər.

**Tövsiyə**

Azərbaycanda biznes icmalarının gömrük ilə bağlı problemlərinin təcili qaydada dinlənilməsi və müvafiq qaydada tədbirlər görülməsinin təmin edilməsi məqsədilə DGK Amerika Ticarət Palatası ilə açıq dialoqu davam etdirməlidir.

## 02 Yeni Gömrük Məcəlləsi

DGK hal-hazırda Hökumət tərəfindən nəzərdən keçirilən yeni Gömrük Məcəlləsinin layihəsinin ən son versiyasının təqdim edilməsi ilə bağlı verdiyi vədi yerinə yetirdi. Sədr Müavini cənab Mehdiyev rəsmi şəkildə Amerika Ticarət Palatasını məcəllənin layihəsinə əsasən rəy və təkliflərini təqdim etməyə çağırdı. Amerika Ticarət Palatasının Direktorlar Şurası sənədin layihəsini nəzərdən keçirərək öz rəylərini təqdim edəcək. Yeni məcəllənin

hazırlanmasının əvvəllər Amerika Ticarət Palatası tərəfindən vurğulanmış gömrük sistemi daxilində sistematik dəyişikliklərin həyata keçirilməsi ehtiyacına əhəmiyyətli töhvə verəcəyi gözlənilir.

**Tövsiyə**

Müasir və effektiv dünya standartlarını özündə əks etdirəcək yeni Gömrük Məcəlləsi yaxın gələcəkdə qəbul edilməlidir.

## 03 Ümumdünya Gömrük Təşkilatı ilə müzakirələr

Bir ildən çoxdur ki, DGK Ümumdünya Gömrük Təşkilatı (ÜGT) və digər ölkələr ilə Azərbaycan gömrük prosedur və təcrübələrinin digər regional, Avropa və ÜGT-yə üzv olan millətlərin prosedur və təcrübələrinə uyğunlaşdırılması ilə bağlı müzakirələr aparır. Bu proses həmçinin DGK sistemi daxilində sistematik dəyişikliklər mövzusunu da əhatə edir. Bu müzakirələr Amerika Ticarət Palatasını narahat edən eyni malların idxalı üçün Azərbaycanın və qonşu ölkələrin gömrük rüsumları arasında uyğunsuzluq, inhisarçılıq və s. kimi məsələləri də əhatə edir. Amerika Ticarət Palatasının Direktolar Şurası bu müzakirələrin hansı mərhələdə olduğunu və müvafiq məsələləri keçiriləcək toplantı zamanı daha təfərrüatı ilə müzakirə edilməsini səbirsizliklə gözləyir.

**Tövsiyə**

- Gömrük rüsumlarının məcmu dəyəri regionun digər ölkələri ilə rəqabətli olmalıdır.
- Azərbaycanın gömrük sərhədindən malların sürətli və effektiv keçirilməsini təmin edən gömrük rüsumlarının ödənilməsi üzrə prosedurlar qəbul edilməlidir.

## 04 Elektron sənədləşdirmə və anbarların yaradılması

Müəyyən müddət ərzində DGK elektron məlumat sisteminin təkmilləşdirilməsini həyata keçirirdi, lakin Amerika Ticarət Palatasının və digər qurumların sistemə ştrixkodun və malların rüsumlarının ilkin ödənilməsinə və malların gömrük sistemindən daha səmərəli və şəffaf qaydada keçməsinə imkan verən izləmə sisteminin təmin edilməsi ilə bağlı tövsiyyələrinə uyğun olaraq addımlar atmadı. Lakin, Sədr müavini cənab Mehdiyev bütün sərhəd keçid məntəqələrində müasir gömrük yoxlama qurğularının və anbarların tikintisində əhəhmiyyətli irəliləyişlər

haqqında məlumat verdi. Ştrix-kod və vaqonlar ilə daşınan yüklərin müasir müəyyən etmə sistemi daxil olan elektron avadanlıqlar quraşdırılmışdır. Bu avadanlıqların əksəriyyətinin artıq istismara verilməsi sayəsində Astara gömrük məntəqəsində İrandan daxil olan 2 partiya qanunsuz narkotiklərin aşkar olunaraq müsadirə edilməsi mümkün olmuşdur.

Sadalanan sərhəd gömrük məntəqələrində geniş anbarlar artıq tikilmiş və ya tikinti prosesindədir. Buraya açıq hava, qapalı sahə və soyuducu anbarları daxildir. Bu anbarların rüsumları ödənilməmiş mallar üçün ayrılması və ya rüsumları ödənilməmiş mal anbarlarının yaxınlıqda tikilməsi imkanları nəzərdən keçirilir, lakin bu məsələ Azərbaycanda uzun müddət ərzində öz həllini tapmamışdır. Amerika Ticarət Palatası hesab edir ki, bu məsələ DGK tərəfindən təkbaşına həll edilməməlidir və yekun qərarın çıxarılması üçün planlaşdırılmış azad iqtisadi zonaların rəsmi təsdiqi gözlənilməlidir. Lakin biz Azərbaycanda biznes fəaliyyətinin xüsusilə də əhəmiyyətli qeyri-enerji sektorunda genişləndirilməsi üçün rüsumları ödənilməmiş mal anbarlarının tikintisinin əhəmiyyətliyini vurğulayırıq.

**Tövsiyə**

Amerika Ticarət Palatası rüsumları ödənilməmiş mal anbarlarının yaxın gələcəkdə tikintisinə Hökumətin icazə verməsini təkidlə tövsiyyə edir.

## 05 Gömrük rəsmilərinin iş şəraitinin yaxşılaşdırılması

DGK rəsmiləri arasında korrupsiya halları üçün stimulların azaldılması məqsədilə, DGK son il ərzində öz işçilərinin əmək haqqlarını əhəmiyyətli dərəcədə artırmışdır. Bununla yanaşı, DGK işçilər və onların yaxın qohumları üçün tibbi xidmətləri təmin edəcək müasir sağlamlıq klinikasının tikintisinə başlamışdır. Amerika Ticarət Palatasının Direktorlar Şurası gömrük işçilərinin iş şəraitinin təkmilləşdirilməsi üçün bu və digər tədbirlər barədə ətraflı məlumatın DGK ilə gözlənilən topantıda təqdim edilməsini səbirsizliklə gözləyir.

**Tövsiyə**

DGK komitə rəsmiləri arasında korrupsiya hallarının minimuma çatdırılması üçün ciddi monitorinq və nəzarət sisteminin təmin edilməsi daxil olmaqla sərt tədbirlər həyata keçirməlidir.

Rabitə və
İnformasiya
Texnologiyaları

V Rabitə və
İnformasiya
Texnologiyaları

# Rabitə və İnformasiya Texnologiyaları

Azərbaycanın beynəlxalq, o cümlədən Ümumdünya Ticarət Təşkilatı, Avropa Birliyi və Informasiya və Kommunikasiya Texnologiyaları (İKT) yüksək inkişaf etmiş ölkələrin bazarlarının ən səmərəli təcrübələrinə müvafiq olaraq uyğunlaşdırılması məqsədilə Amerika Ticarət Palatası İKT sektorunda biznesə münasibətdə əlverişli mühitin yaradılması və tam rəqabətli İKT sektoruna transformasiyadan ibarət milli məqsədin həyata keçirilməsində Hökumət ilə əməkdaşlığını davam etdirir. Amerika Ticarət Palatası bu fəaliyyətlərin həyata keçirilməsini Rabitə və İnformasiya Texnologiyaları Naziri cənab Əli Abbasovun qətiyyətliyi ilə əlaqələndirir.

**İKT sektorunda təkmilləşdirilmələr aşağıdakılardan ibarətdir:**

- Xidmət haqqları: beynəlxalq standartlara uyğunluğun təmin edilməsi istiqamətində ilk addım olaraq internet abunə haqqları və icarə olunan mis xətlərinin dəyəri azaldılmışdır. Fiksə edilmiş xətlər üçün aylıq abunə haqqı artırılaraq çıxan uzun məsafəli zənglər üçün haqqların azaldılmasına imkan yaradılmışdır.
- İnternet sürəti: internet sürəti artırılır və hazırda fiber optik kanallar vasitəsilə 6.6 Gbps çatmışdır. Fasilə siqnalı azalaraq beynəlxalq standartalara yaxınlaşdırılır.
- Regional İnnovasiya zonaları və yerli istehsalat: məşvərətçi şirkətlərindən birinin yardımı ilə nazirlik hal-hazırda "regional innovasiya zonalarının" (o cümlədən "texnoparklar" və "virtual innovasiya zonaları") və beynəlxalq məlumat tranzit mərkəzinin yaradılması üçün layihəni tərtib edir. Bütün bunlar yerli istehsalata sərmayə yatırımlarının və elektron avadanlıq və proqram təchizatının ixracının həvəsləndirilməsi məqsədini güdür.
- Azad iqtisadi zonalar: İqtisadi İnkişaf Nazirliyi istehsalat üçün (o cümlədən, kompüter istehsalı və proqram təchizatının inkişaf etdirilməsi) faydalı olan azad iqtisadi zonalar haqqında qanun layihəsini tərtib etmişdir. Qanun layihəsi həmçinim 2% səviyyəsində vahid verginin, 5% səviyyəsində sosial sığorta vergisinin və 10% səviyyəsində gəlir vergisinin təyin edilməsini təklif edir.

## 01 Müstəqil Tənzimləmə orqanı

Azərbaycanda rəqabətli İKT mühitinin təmin edilməsi üçün bütün iştirakçılar üçün bərabər və ədalətli şərait yaradaraq şəffaf və proqnozlaşdırılan tənzimləmə mühiti böyük əhəmiyyət kəsb edir. Bu isə yerli İKT sektoruna əlavə sərmayələrin cəlb edilməsi üçün ilk şərtlərdən biridir. Hökumət bu tədbirləri 2005-2008-ci illəri əhatə edən milli İKT strategiyasında təsdiq etmişdir. Bu məqsədlə Hökumət İKT sektorunun tənzimləmə orqanının müstəqil və ya Nazirliyin bir hissəsi olub olmaması məsələsini nəzərdən keçirir. Bizim fikrimizcə, tənzimləyici orqan İKT sektorunda kommersiya əsaslarında iştirak edən və İKT bazarının digər

iştirakçıları ilə rəqabət aparan dövlət orqanından tam müstəqil olmalıdır. Nazirlik İKT bazar iştirakçılarının kommersiya fəaliyyətlərində hər hansı maliyyə maraqlarına malik olduğu halda, tənzimləmə orqanı nazirlikdən ayrı və müstəqil şəkildə fəaliyyət göstərməlidir. Başqa sözlə, İKT tənzimləyicisi rəqabət apara bilməz, əks təqdirdə bu böyük ədalətsizlik olardı.

**Tövsiyə**

Hökumət İKT sektoru üçün İKT sektorunda kommersiya əsasları ilə iştirak edən və ya digər İKT bazar iştirakçıları ilə rəqabət aparan hər hansı qurum və hökumət orqanından müstəqil olan tənzimləmə orqanını təsis etməlidir.

## 02 Özəlləşdirmə

Milli İKT strategiyasına və müştərək müəssisələrin və dövlət telekommunikasiya müəssisələrinin özəlləşdirilməsini müəyyən edən müvafiq tədbirlər planına baxmayaraq, Hökumət hələ də İKT bazarında dominant mövqe tutaraq müəssisələrdə müəyyən paya sahibdir. Hökumət bu müəssisələrin bazar dəyərinin artırılması və sərmayələrin cəlb edilməsi üçün onların özəlləşdirilmədən öncə təkmilləşdirilməsini təklif etmişdir. Amerika Ticarət Palatası bu təklifə hörmətlə yanaşır, lakin bununla razılaşmır. Biz hesab edirik ki, Hökumətin gələcək sərmayəçilərin ehtiyaclarını müəyyən etmək üçün ən əlverişli mövqedə olmaması habelə Nazirliyin tənzimlədiyi sahədə davamlı kommersiya müdaxilələri artıq bu sektorda sərmayə qoyuluşlarına mənfi təsir göstərir. Eyni dərəcədə əhəmiyyət kəsb edən digər amil ondan ibarətdir ki, beynəlxalq təcrübə göstərir ki, sərmayəçilər "təkmilləşdirilməmiş müəssisələr üçün daha çox pul ödəməyə hazırdırlar.

**Tövsiyə**

Amerika Ticarət Palatası tövsiyyə edir ki, Hökumət gəlirli müəssisələri hazırkı zamanda özəlləşdirərək yeni sahiblərə hansı növ təkmilləşdirilmələrin arzuolunan və uyğun olması barədə qərar qəbul etmək imkanı versin.

## 03 Gömrük rüsumları

Rəqabətli yerli bazarın yaradılması üçün müvafiq tarif tənzimləyicisi xüsusi əhəmiyyət kəsb edir. İnformasiya Texnologiyaları və telekommunikasiya sənayelərinin idxalı üçün tarif səviyyələrində əhəmiyyətli fərqlər vəsaitlərin təmin edilməsini təhrif etməklə yanaşı inkişafı şübhə altına alır və məhsulların təsnifləşdirilməsi üçün gömrük rəsmiləri üçün özbaşına qərar qəbul etmək üçün imkanlar yaradır.

İT məhsullarının telekommunikasiya məhsulları kimi təsnifləşdirildiyi halda, İT məhsulları üçün 3 % tarif tətbiq olunur, telekommunikasiya məhsulları üçün isə 15% tarif tətbiq edilir. Digər əhəmiyyətli problem İT məhsulları üçün tarifin strukturudur ki, bu da hazır məhsulların komponentlər və ehtiyyat hissələri hesabına idxalını dəstəkləyir. Məsələn, şəxsi kompüter üçün rüsum 3%, kompüterin komponentləri üçün isə 10% bərabərdir ki, bu da Azərbaycanda kompüterlərin quraşdırılması biznesi üçün əhəmiyyətli antistimuldur.

Kompüter və əlavə avadanlıqlar üçün Azərbaycanın gömrük rüsumları regionda rəqabətlik qabiliyyətinə malik deyil. Gürcüstan, Türkiyə və Türkmənistanda bu məhsullar üçün rüsum 0% bərabərdir. Regionda bu sənayedə aparıcı mövqe tutmaq üçün Azərbaycan biznesə münasibətdə əlverişli şərtlər yaratmalıdır.

**Tövsiyə**

İT və kommunikasiya məhsulları üçün tariflərin xərclərə əsaslanmasını təmin etmək və mövcud olan subsidiya və qeydi-səmərəliyi aradan qaldırmaq üçün onlar yenidən tarazlaşdırılmalıdır. Biz tövsiyə edirik ki, Ümumdünya Ticarət Təşkilatının İnformasiya Texnologiyaları haqqında Sazişində müəyyən edildiyi kimi İT və telkommunikasiya məhsulları üçün tariflər 0% endirilməlidir.

## 04 Əqli mülkiyyət hüquqları

Azərbaycanda proqram təchizatlarının və DVD-lərin qanunsuz çıxarılmış sürətləri geniş yayılmışdır və bəzi televiziya kanalları bu DVD-lərdən istifadə edərək filmləri nümayiş etdirirlər. Bəzi televiziya kanalları televiziya proqramlarını, yenidən nümayiş etdirilmə hüququnun sahiblərinin təsdiqi və ya razılığı olmadan yenidən nümayiş etdirməyə davam edirlər.

**Tövsiyə**

Amerika Ticarət Palatası Azərbaycanın Ümumdünya əqli mülkiyyət hüquqları sazişinə və Avropa Şurası prinsipləri ilə müyyən edilmiş öhdəliklərə uyğunluğunun təmin edilməsi üçün İKT sektorunda etibarı gücləndirməklə əqli mülkiyyət hüquqlarının müdafiə edilməsi üçün səylərin yeniləşdirilməsini və gücləndirilməsini tövsiyyə edir. Nazirlik Dövlət Gömrük Komitəsi ilə sıx əməkdaşlıq edərək qanunsuz DVD, CD və proqramların idxalına və təhlükəsizlik orqanları ilə əməkdaşlıq edərək qanunsuz olaraq ölkə daxilində sürətlərin çıxarılmasına son qoymalıdlr.

# VI Əmək

# Əmək

Amerika Ticarət Palatası diqqətli təhlillərdən sonra aşağıda təqdim edilən altı məsələnin qanunvericilik baxımından yenidən nəzərdən keçirilməli ən əhəmiyyətli məsələlər olduğu nəticəsinə gəlmişdir. İşverən və işçinin üzləşdiyi bir çox məsələlər arasında seçim etdikdə biz seçimimizi işverən və ya işçi üçün obyektiv baxımdan ədalətsiz sayılan və ya bizim təkliflərimiz yerinə yetirilərsə ümumilikdə məşğuliyyətin səviyyəsinin artırılmasını dəstəkləyəcək sahələr ilə məhdudlaşdırmışıq.

Amerika Ticarət Palatası həmçinin hesab edir ki, Sosial Müdafiə Fondu tərəfindən işverənlərin aktiv qaydada təftiş edilməsi fondun fəaliyyəti ilə bağlı ciddi narahatçılıqlara səbəb olur. Bu səbəbdən də, Amerika Ticarət Palatası aşağıdakı tövsiyələri verir:

## 01 Ödənişlərin səviyyəsinin azaldılması

Amerika Ticarət Palatası hesab edir ki, sosial fonda ödənişlərin hazırkı strukturu yeni iş yerlərinin yaradılmasında böyük maneə yaradır və işçilər üçün müavinətlərın təmin edilməsində ədalətsizdir.

Cəlb olunan işçi qüvvəsinin dəyəri ümumi biznesin qurulmasının ümumi dəyərinin əsas komponentidir. Bu dəyər yüksək olduqda işverən işçi qüvvəsinin cəlb edilməsini ixtisar edəcək və ya yeni sərmayə yatırımlarını həyata keçirməyəcək. Gəlir vergisi ilə yanaşı sosial fond ödənişləri işçilərin işə cəlb olunması xərclərini artırır. Yeni işçinin işə cəlb edilməsinin məcmu dəyəri marja stavkası ilə xalis məvacibin 83%-nə bərabərdir. Yeni işçi qüvvəsinin işə götürülməsinin bu kimi yüksək xərcləri işverənlər üçün ciddi maneə yaradır və qeyri-neft sektorunda mövcud olan ticarət partnyorlarının xərcləri ilə rəqabətli deyil. Amerika Ticarət Palatası əsaslı olaraq hesab edir ki, bir çox biznes qurumlarının fərdi olaraq Gürcüstanda təsis edilməsi səbəbi onların orada daha ucuz işçi qüvvəsindən bəhrələnməsidir, baxmayaraq ki, oradakı işverənlər Azərbaycanda regional nümayəndəliklərinin təsis edilməsini arzu edirlər. Nəticə etibarı ilə Azərbaycan qonşu ölkələrdə öz biznes fəaliyyətini itirmiş olur. Amerika Ticarət Palatası hesab edir ki, əmək bazarı inkişaf etsə və biznes fəaliyyəti çiçəklənsə işçi qüvvəsinin ümumi dəyəri əhəmiyyətli dərəcədə azaldılmalıdır. Amerika Ticarət Palatası həmçinin hesab edir ki, həm gəlir vergisi həm də sosial təhlükəsizlik ödənişləri üçün daha aşağı "sıfır" dərəcənin tətbiq edilməsi məşğuliyyətin əhəmiyyətli dərəcədə artırması ilə nəticələnəcək.

**Tövsiyə**

Amerika Ticarət Palatası tövsiyə edir ki, sosial fond ödənişləri aşağıdakı qaydada azaldılsın:

- İşverən tərəfindən ödənişlər 22%-dən 15%-ə qədər endirilsin;
- İşçilər tərəfindən ödənişlər 5%-ə qaldırılsın;
- İşçinin 500 AZN-ə bərabər ilk məvacibi üçün işçi gəlir vergisindən, işçverən isə sosial ödənişlərdən azad edilsin.

## 02 Sosial müavinətlər üçün ödənişlər üzrə yuxarı həddin ləğv edilməsi

Sosial fond ödənişləri (hal-hazırda işçinin məvacibindən 3% çıxılır və işverən əlavə olaraq məcmi məvacibin 22%-nə bərabər ödəniş həyata keçirir) üzrə hər hansı yuxarı hədd mövcud olmadığından, Amerika Ticarət Palatası hesab edir ki, sosial müavinətlərin ödənişləri üzrə də hər hansı yuxarı hədd olmamalıdır (hal-hazırda analıq məzuniyyəti üzrə müavinət həddi 1250 AZN-a bərabərdir). Amerika Ticarət Palatası hesab edir ki, müavinətlərın həcminin məhdudlaşdırılması üçün əsaslı səbəblər olsa belə ödənişlər üzrə məhdudiyyətlər olmadığını nəzərə alaraq müavinətlər üzrə də məhdudiyyətlərin olmaması məntiqə uyğundur.

**Tövsiyə**

Amerika Ticarət Palatası tövsiyə edir ki, 2007-ci il tarixli Sosial Sığorta haqqında qanuna düzəlişlər (yəni analıq məzuniyyəti üzrə 1250 AZN-ə bərabər limit və digər limitlər) ləğv edilsin və düzəliş qüvvəyə mindikdən əvvəlki vəziyyətə qayıdış təmin edilsin.

## 03 Müavinətlərın daha effektiv qaydada ödənişi və daha az aktiv olan təftişin keçirilməsi

Amerika Ticarət Palatasının üvləri məlumat verirlər ki, Sosial Müdafiə Fondu sosial müavinətlərın ödənişində effektiv deyil (misal üçün analıq məzuniyyəti üzrə müavinətlər) və bu bir çox hallarda işçi üçün çətinliklər yaradır. Bununla yanaşı, bəzi işverənlərin Sosial Müdafiə Fondu tərəfindən həddindən artıq aktiv qaydada təftiş edilməsi xoş olmayan münasibət yaradır. Bizim bəzi üzvlərin

verdikləri məlumata əsasən qanuni maddələr olan biznes fəaliyyəti üzrə xərclər səhv olaraq sosial ödənişlər üçün tələblərə aid edilir.

**Tövsiyə**

- Sosial Müdafiə Fondu tərəfindən müavinətlərın vaxtlı-vaxtında ödənilməsi üçün daha çox səylərin göstərilməsi.
- Sosial Müdafiə Fondu tərəfindən işverənlərin narahatçılıqlarının dinlənilməsi və qanunların əsaslandırılmış və ədalətli qaydada tətbiq edilməsi üçün daha çox səylərin göstərilməsi.

## 04 Tətil və məzuniyyətlərin qeydiyyatı

Hal-hazırda Əmək Məcəlləsinin 138(4) saylı Maddəsində deyilir: "Tətil və məzuniyyətlərin verilməsində dəqiqliyin təmin edilməsi məqsədilə qeydlər işçilərin iş illərinə müvafiq olaraq aparılmalıdır". İşçilərin iş ili müxtəlif olduğundan bu proses lazımsız çətinlik və bürokratiya ilə nəticələnir, bu isə səhvlərə yol vermə ehtimalını artırır. Bu həmçinin ilin əvvəlində tətilin planlaşdırılmasında da problemlər yaradır. Biz təqvim ilinin iş ili kimi təyin edilməsinin və işçi bir ildən az müddətə işə götürüldükdə, tətil təyinatının müvafiq qaydada təyin edilməsinin məntiqli olduğunu hesab edirik.

**Tövsiyə**

Biz 138(4) saylı Maddənin aşağıdakı qaydada düzəliş edilməsini tövsiyə edirik:
"Tətil və məzuniyyətlərin verilməsində dəqiqliyin təmin edilməsi məqsədilə qeydlər təqvim ilinə əsasən aparılmalıdır".

## 05 İş vaxtından artıq görülən iş

Ümumi məlumat: 1999-cu il tarixli Əmək Məcəlləsindən əvvəlki qanuna müvafiq olaraq məzuniyyət üçün təyinat işçinin gördüyü işin xüsusiyyətindən asılı idi. Rəhbər/təcrübəli işçilər və təcrübəsiz işçilər arasında qeyri-dəqiq olaraq fərq qoyulurdu. Təcrübəsiz işçilər üçün illik məzuniyyət günlərinin (21 gün) bir neçə günü təyin edilirdi və bir çox hallarda bu işçilər üçün iş vaxtında əlavə görülən iş üçün ödəniş qadağan edilmişdir (və lazım olduqda kompensasiya edilməli idi). Təcrübəli işçilər üçün daha çox illik məzuniyyət

günləri təmin edilirdi (30 gün), lakin işverəndən iş vaxtından artıq görülən iş haqqını ödəmək tələb edilmirdi, çünki belə hesab edilirdi ki, artıq görülmüş iş daha çox illik məzuniyyət günləri verməklə kompensasiya olunur.

1999-cu ildə yeni Əmək Məcəlləsi qəbul edildikdən sonra, təcrübəli və təcrübəsiz işçilər üçün iş vaxtından artıq görülən iş haqqında müddəalar bərabərləşdirilmişdir. Bunun nəticəsi olaraq qanuni olaraq rəhbər/təcrübəli və ya ixtisaslı işçilərdən çox nadir "fövqəladə" hallar istisna olmaqla iş vaxtından artıq iş görməyi tələb etmək mümkün deyil və həmin iş vaxtından artıq görülmüş iş üçün əlavə olaraq kompensasiya təmin edilir. Bu dəyişikliklərə baxmayaraq, hal-hazırda bütün işçilər təqvimə əsaslanan 30 günlük illik məzuniyyət günlərinə malikdir. Biz hesab edirik ki, bu işverənlərin xərclərinin əhəmiyyətli dərəcədə artması ilə nəticələnir. Həmçinin biz hesab edirik ki, iş vaxtlarından artıq görülən iş halları üçün məhdudiyyətlər işverənin işin təşkil edilməsində çevikliyini əhəmiyyətli dərəcədə azaldır və işverənlər tərəfindən (o cümlədən hökumət qurumları) qeyri-qanuni prosedurların tətbiq edilməsini dəstəkləyir.

Biz həmçinin hesab edirik ki, işçilərin kifayət qədər istirahət etməsini təmin etmək məqsədilə iş vaxtından artıq işin görülməsində məhdudiyyətlər məntiqsizdir, çünki ikinci işdə çalışan işçilər üçün heç bir məhdudiyyət qoyulmur.

## Tövsiyə

- 1999-cu il tarixli Əmək Məcəlləsinin 99(2), 101 saylı maddələrinin ləğv edilməsi. Bu maddələrin ləğvi bütün hallarda iş vaxtından artıq işin görülməsinə icazə verəcək.
- 1999-cu il tarixli Əmək Məcəlləsinin 165 saylı Maddəsinə 1 saylı alt-Maddənin sonuna aşağıdakı yeni bəndin daxil edilməsi ilə düzəliş edilməsi, “114(3)saylı Maddədə sadalanan kateqoriyalara aid edilən işçilər tərəfindən cari 165 saylı Maddəyə müvafiq olaraq iş vaxtından artıq işin görülməsi ilə bağlı ödəniş həyata keçirilməməlidir.”

# VII Turizm

# Turizm

Amerika Ticarət Palatası Azərbaycan iqtisadiyyatına əhəmiyyətli töhvələr vermək üçün turizm sektorunun böyük potensiala malik olduğunu təsdiqləyir. Biz burada bu inkişaf üçün əhəmiyyətli saydığımız bir sıra təklifləri təqdim edirik. Biz həmçinin Mədəniyyət və Turizm Nazirliyinın və töhvələr verən digər nazirliklərin və təşkilatların bu sahədə bütün xidmətlərin yaxşılaşdırılması məqsədilə qanun və prosedurlara müəyyən dəyişikliklər etməklə ümumi turizm biznes iqliminin yaxşılaşdırılması sahəsindəki səylərini alqışlayırıq. Biz, şahidi olduğumuz bəzi müsbət dəyişiklikləri aşağıda təqdim edirik və onları alqışlayırıq:

- Azərbaycanda mövcud olan mehmanxanaların standartlaşdırılması və ulduz prinsipi əsasında sertifikatlaşdırılması.
- Azərbaycana gələn turistlər üçün yeddi turizm marşrutlarının müəyyən edilməsi.
- BMT İnkişaf Programı ilə birgə Bakıda, Xaçmazda, Şəkidə, Gəncədə, Naxçıvanda, Lənkəranda və Qubada Turist Məlumatlandırma qurumlarının təsis edilməsi və məlumatların, xəritələrin və s. təmin edilməsi.
- Milli Parkların inkişaf etdirilməsi və qorunub saxlanılması.
- Tarixi abidələrin və digər maraqlı yerlərin qorunması və bərpası.
- Rəsmi turizm internet səhifələrinin yaradılması.
- Azərbaycan Turizm İnstitutunun təsis edilməsi.
- Azərbaycan Turizm İnstitutu tərəfindən regionlarda turizm ilə bağlı təlimlərin keçirilməsi.
- Müəyyən regionlarda turizmin və iqtisadiyyatın inkişaf etdirilməsi üçün QHT-lər ilə birgə regional dayanıqlı layihələrin icra edilməsi.
- Yerli əlişləri istehsalının və satışının inkişaf etdirilməsi.
- CNN və Euronews kanallarında yayımlanan təbliğat xarakterli filmələrin istehsalı.

Azəbaycanda turizmin daha da inkişaf etdirilməsi məqsədilə biz bu sektorun gələcəyi üçün xüsusi əhəmiyyət kəsb edəcəyinə inandığımız təklifləri təqdim edirik.

## 01 Turizm operatorları üçün məlumatlandırma proqramı

Turizm üzrə mütəxəssislər hüquqi öhdəlikləri barədə məlumatlandırılmamışdır.

**Tövsiyələr**

Bu sahədə çalışan insanların turizmə aid olan hüquqi məsuliyyət və öhdəlikləri haqqında məlumat proqramlarının (turizmə aid internet səhifələri vasitəsilə həyata keçirilə bilər) icra edilməsi.

## 02 Vizanın alınması zamanı ləngimə

Amerika Ticarət Palatası bir çox turistlər üçün ölkəyə daxil olarkən viza almaq imkanlarının yaradılmasını alqışlayır, lakin vizanın alınması prosesi çox yorucudur və bu turistlərdə ölkə haqqında mənfi təəssürat yaradır. Vizanın verilməsi proseduru uzadılmışdır, belə ki, viza alan şəxs üç dəfə növbədə durmalıdır-birinci dəfə sərhəd nəzarət bölməsində, sonra viza bölməsində və ən sonda yenə də sərhəd nəzarət bölməsində. Bu lazımsız bürokratik prosedur sadəcə olaraq turistlərin və digər insanların ölkəyə daxil olma prosesinin uzanmasına gətirib çıxarır.

### Tövsiyələr

Vizası olmayan şəxslərə viza blankları enişdən əvvəl uçuş zamanı paylanıla bilər və bununla da vaxta qənaət edilmiş olar. Həmçinin vaxta qənaət etmək habelə sərhəd nəzarət işçiləri və ölkəyə gələn turistlərin işlərinin həcminin artmasının qarşısını almaq məqsədilə həmin şəxslərin immiqrasiya bölməsinə yaxınlaşmadan əvvəl birbaşa olaraq viza bölməsinə yaxınlaşmaları tövsiyə olunur. Bir sıra sərhəd nəzarət işçiləri Ingilis dilində yaxşı danışsalarda, turizmin inkişaf etdirilməsinə yardım etmək üçün viza və sərhəd nəzarət bölmələrində çalışan işçilərin Ingilis dilinə yiyələnmələri və ya dil ilə bağlı problemlərə yardım etmək üçün bir və ya iki işçinin dəqiq şəkildə müəyyən edilməsi məqsədəuyğun olardı.

## 03 Hava limanından yola düşmə

Bakıda əsas beynəlxalq hava limanı olan Heydər Əliyev Beynəlxalq Hava Limanının bir neçə il bundan əvvəlki dövr ilə müqayisədə əhəmiyyətli dərəcədə təkmilləşdirilməsinə baxmayaraq, ölkəyə gələnlər üçün qonaqpərvərliyin nümayiş etdirilməsi üçün burada müəyyən tədbirləri həyata keçirmək olar. Ölkəni tərk edən zaman gömrük prosedurları həmçinin yükün verilməsi prosedurları qeyri-aydındır. Rüsumsuz mağazalarda qiymətlər adətən ölkədə mövcud olan qiymətlərdən yuxarıdır və təklif olunan malların çeşidi əvvəlki dövrlər ilə müqayisədə çox olsa da, yenə də məhduddur. Çox az sayda qida mağazaları mövcuddur və Azərbaycan valyutasının ölkədən çıxarılmasının mümkün olmaması insanların burada pul xərcləməsini çətinləşdirir.

### Tövsiyələr

Səyahətçilərə Azərbaycan valyutasını məhdud həcmdə özləri ilə götürməyə icazə verilməlidir (misal üçün maksimum 200 AZN ). Bu səyahətçilərə hava limanında qeydiyyatdan sonra pul xərcləməyə imkan verəcək. Qeydiyyatdan sonrakı sahədə valyuta mübadilə məntəqələri olmalıdır ki, səyahətçilərə xərcləndikdən sonra qalmış Azərbaycan valyutasının dəyişdirilməsinə imkan verilsin.

## 04 Hava limanında turizm məlumatlandırma məntəqəsi

Hava limanında turist məlumatlandırma məntəqəsi, nəqliyyat xidmətləri və ya maşınların icarəyə verilməsi kimi digər xidmətlər mövcud deyil.

### Tövsiyələr

Turistlərin daşınma, taksi qiymətləri, limuzin xidmətləri, mehmanxanalar, şəhərin diqqətəlayiq yerləri haqqında məlumatlar barədə suallarını ünvanlandırmaq imkanı verəcək turizm məlumatlandırma məntəqəsi təsis edilməlidir. Şəhərin mərkəzinə təhlükəsiz avtobus xidmətlərinin təmin edilməsi məqsədəuyğun olardı.

## 05 Turizm inkişaf planı

Belə fikir yaranır ki, Azərbaycanda bazarın turizm sahəsinin inkişaf etdirilməsi üçün müvafiq inkişaf planı mövcud deyil.

### Tövsiyələr

Ölkənin tarix, mədəniyyət, din, iqlim, təbiət, dəniz, konfranslar/yarışlar və s. kimi resurslarını qiymətləndirən turizmin inkişafına dair kompleks plan mövcuddursa bu barədə daha geniş kütləyə məlumat verilməlidir. Belə bir plan mövcud deyilsə, tərtib edilməlidir.

## 06 Xarici dildə izahat işarələri

Muzeylər və digər diqqətəlayiq yerlər barədə Ingilis və ya Avropa dillərinin birində məlumat əldə etmək çətindir.

### Tövsiyələr

İzahat işarələri, istiqamət işarələri turistlərin anlaması üçün Ingilis dilində tərtib edilməlidir. Muzeylər üçün vəsaitin toplanılması vasitəsi kimi muzeylərdə Ingilis/ digər dillərdə kitablar, açıqlamalar, soraq kitabçaları, xəritələr və s. təqdim edilməlidir. Həmçinin muzey və ya digər maraqlı yerlər barədə geniş izahatı təqdim etmək üçün turist bələdçiləri təmin edilməlidir. Tarixi və digər diqqətəlayiq yerlərdə Ingilis dilli ixtisaslı turist bələdçilərinin olması məqsədəuyğun olardı.

## 07 Azərbaycan əl işləri

Çox az sayda əl işləri ictimaiyyət və turistlər üçün satışa çıxarılır. Suvenirlərinin satışa çıxarılmasının artmasına baxmayaraq onların əksəriyyəti Azərbaycanda istehsal edilməmişdir.

### Tövsiyələr

Əl işləri turistlər tərəfindən ən çox pul xərclənən sahələrdən biridir və bu regionlarda yaşayan insanlara əl işlərini hazırlayaraq gəlir əldə etmək imkanı verə bilər. Biz tövsiyə edirik ki, daha çox əl işlərinin hazırlanması üçün regionların cəlb edilməsi məqsədilə əl işləri ustaları assosiasiyası ilə birgə layihə həyata keçirilməlidir. Bu kimi əl işləri muzey, abidələr, mehmanxanalar, hava limanı və s. kimi görməli yerlərdə satışa çıxarıla bilər.

## 08 Turizm məlumatlarının toplanması

Turizm sektoru üzrə dayanıqlı statistik və bazar təhlillərinə dair məlumat azlığı vardır və bu səbəb üzündən bu sektorun ümumi iqtisadiyyata təsirini qiymətləndirmək və ya hesablamaq çətindir.

**Tövsiyə**

Tövsiyə olunur ki, məlumatların təsdiq olunması üçün gömrük rəsmiləri və mehmanxanalar, motellər, istirahət mərkəzləri və digər qurumlar tərəfindən Mədəniyyət Nazirliyinə və ya hal-hazırda olduğu kimi Dövlət Statistika Komitəsinə hesabat təqdim edilsin.

# VIII Korrupsiya

# Korrupsiya

## 01 Korrupsiya ümumilikdə

Beynəlxalq müşahidəçilər Azərbaycanın məhkəmə, hüquq və iqtisadi sektorlarında korrupsiyanın geniş yayılması barədə xəbər verməyə davam edirlər. Bununla yanaşı, dünya biznes arenasında Azərbaycan korrupsiyanın geniş yayıldığı bir ölkə kimi qiymətləndirilir. 2004-ci ildən etibarən hökumət şəffaflığın artırılmasına və korrupsiyanın azaldılmasına yönəldilmiş bir sıra antikorrupsiya tədbirlərini təyin etmişdir. Təəsüf ki, dövlət məmurları tərəfindən məlumatların ictimaiyyətə açıqlanmasını tələb edən qanunlar da daxil olmaqla, bu qanunların əksəriyyətinin icra edilməsi zəif və qeyri-adekvat olaraq korrupsiya hallarının davam etməsinə və bu mənfi halların ölkədə neft gəlirlərinin artması ilə paralel olaraq artmasına imkan vermişdir. Bu isə nüfuz və ümumi anlayış problemindən daha kəskin bir haldır – faktiki olaraq, sistematik korrupsiya halları xarici sərmayə yatırımlarını, iqtisadi inkişafı və qanun aliliyinə əsaslanan məhkəmə sisteminin yaradılmasını kəskin şəkildə ləngitmişdir.

2007-ci ilin yay mövsümündə Hökumət yenidən öz diqqətini korrupsiya ilə mübarizəyə yönəltmiş və korrupsiya probleminin həll edilməsinə yönəldilmiş bir sıra müsbət addımlar atmışdır. Birincisi, Hökumət Şəffaflığın Artırılması və Korrupsiya ilə Mübarizəyə Dair Milli Strategiyanı qəbul etmişdir. İkincisi, Hökumət dövlət qulluqçuları üçün davranış məcəlləsini qəbul etmişdir. 2007-2011-ci illəri əhatə edən Korrupsiya ilə Mübarizəyə Dair yeni Milli Strategiya Azərbaycanın əvvəlki 2004-2006-cı illəri əhatə edən korrupsiya ilə mübarizəyə dair Dövlət Proqramını əvəz edir və daha geniş əhatə dairəsinə malikdir. Hökumət, ümumilikdə köhnə dövlət proqramının uğurlu olduğunu bəyan etsə də, yeni Milli Strategiyada geniş-miqyaslı təkmilləşdirmə tədbirlərinə olan tələbat əvvəlki proqramın icrasında bir çox çatışmazlıqların olduğunu aydın şəkildə təsdiq edir. Əvvəlki planın formatına oxşar formatda olan Yeni Strategiya iki hissədən ibarətdir: Milli Strategiya Hökumətin anti-korrupsiya siyasətini və öhdəliklərini müəyyən edir, Tədbirlər Planı isə ümumi vaxt çərçivəsində icra olunacaq spesifik tədbir və fəaliyyətləri müəyyən edir.

Yeni Milli Strategiya Hökumət üçün bir sıra sahələrdə əhəmiyyətli islahatların icra edilməsi, o cümlədən çirkli pulların yuyulmasına/terrorizmə qarşı tədbirlərin maliyyələşdirilməsinə dair ətraflı qanunun qəbul edilməsi, hökumət satınalmalarında hesabatlılığın artırılmasını, anti-korrupsiya komissiyasının fəaliyyətinin təkmilləşdirilməsi, dövlət lisenziyalarının verilməsi və tənzimləmə proseslərinin sadələşdirilməsi və hökumət tədbirləri vasitəsilə şəffaflığın artırılması kimi öhdəliklərin icra edilməsini təyin etmişdir. Əvvəlki plandan fərqli olaraq, yeni strategiya həmçinin tədbirlərin icrası üzərində sistematik monitorinqin keçirilməsini və ictimaiyyətə hesabatın verilməsini tələb edir. Cari strategiya sahibkarlıq üçün bu prosesdə iştirak etmək və fəaliyyətin icra edilməsində müşahidə olunan uğursuzluqlar üçün cavabdehliyi təyin etmək imkanı yaradır. Bütün bunlar böyük nailiyyətlər ilə nəticələnə biləcək müsbət addımlardır.

Bütün bunlara baxmayaraq, yeni Milli Strategiyaya tənqidi yanaşma fəaliyyət planına daxil edilmiş tədbirlərin əksəriyyətinin köhnə öhdəlikləri təkrar etdiyini, digər tədbirlərin isə necə və nə zaman icra ediləcəyi və ya uğurlu icranın ölçülməsi üçün hansı göstəricilərin tətbiq ediləcəyi ilə bağlı qeyri-müəyyənliyin olduğunu göstərir. Burada Hökumətin anti-korrupsiya komissiyasının tərkibini genişləndirərək vətəndaş cəmiyyətinin üzvlərini daxil etmək və ya komissiya nəzdində müstəqil məşvərətçi komitəni yaratmaq niyyətinin olmaması kimi digər çatışmazlıqlar da mövcuddur.

Hökumət tərəfindən korrupsiyaya qarşı mübarizə ilə sıx əlaqəli olan bir sıra sahələrdə islahatların keçirilməməsi yuxarıda qeyd edilmiş müsbət addımlara öz mənfi təsirini göstərir. Sadalanan əhəmiyyətli çatışmazlıqlar sırasında parlamentin və kütləvi informasiya vasitələrinin müstəqilliyini və toxunmazlığını dəsəkləyən tədbirlərin olmamasını da göstərmək olar. Tədbirlər planının icra olunması üçün dövlət büdcəsindən və ya müxtəlif nazirliklərdən təyin olunan spesifik büdcə öhdəlikləri də, böyük əhəmiyyətinə baxmayaraq, müəyyən edilməmişdir. Azərbaycanın ən yeni milli strategiyasının korrupsiya hallarının müvafiq qaydada aradan qaldırılması üçün Hökumətin siyasi iradəsini gücləndirib gücləndirməyəcəyi və bunun əhəmiyyətli dəyişikliklər ilə nəticələnib nəticələnməyəcəyi yalnız onun icrası zamanı aydın olacaq.

## Tövsiyələr

- Hər bir nazirlik Korrupsiya ilə Mübarizəyə Dair yeni Milli Strategiyası ilə tələb olunduğu qaydada hər ilin dekabr ayının sonunda ətraflı və spesifik tədbirlər planını, Azərbaycanın beynəlxalq öhdəliklərinə müvafiq olaraq onun şəffaflığı necə artıracağını və korrupsiya ilə mübarizəyə necə təsir göstərəciyini vurğulayaraq, tərtib etməli və təqdim etməlidir.
- Hüquq-mühafizə orqanları tərəfindən anti-korrupsiya rejiminin müvafiq qaydada və effektiv şəkildə tətbiq edilməsinin təmin edilməsi məqsədilə onlar üçün tələb olunan araşdırma vasitələrini təqdim etmək üçün Azərbaycan Respublikasının qanunlarına və Cinayət Prosessual Məcəlləsinə dəyişikliklər edilməlidir. Buraya anonim şikayətlər üçün icazənin verilməsi, xəbəri çatdıran tərəfin qorunması və korrupsiya ilə bağlı cinayətlərin araşdırılması və icra edilməsi üçün prosedurların sadələşdirilməsi daxildir.
- Çirkli pulların yuyulmasına dair qanun layihəsi qəbul edilməli və elə qaydada icra olunmalıdır ki, korrupsiya ilə bağlı cinayətlər çirkli pulların yuyulması ilə bağlı cinayətlər kimi icra olunmalı və qanunsuz gəlirlər müsadirə edilməlidir.

### Tövsiyələr

- Maliyyə məlumatlarının açıqlanması haqqında qanun icra edilməlidir və bütün dövlət rəsmiləri tələb olunan maliyyə məlumatlarının açıqlanmasına dair sənədləri tərtib etməlidir.
- Maraqların toqquşmasına dair qanun layihəsi qəbul edilməli və icra olunmalıdır.
- Baş Prokurorluq İdarəsinin Anti-Korrupsiya Departamenti öz işçi heyyətinin sayını artırmalı və yüksək dərəcəli ictimai korrupsiya hallarının araşdırılması və icra edilməsi üçün daha sərt yanaşma tətbiq etməlidir.
- Hökumət müstəqil, etik və peşəkar kütləvi informasiya vasitələrinin formalaşmasına imkan yaratmalı və mətbuat azadlığı üçün güclü hökumət dəstəyini təmin etməlidir ki, jurnalistlər təqibə məruz qalmadan korrupsiya halları barədə obyektiv şəkildə məlumat versinlər.

## 02 "Inhisarçılıq" vasitəsilə korrupsiya

Azərbaycanda mövcud olan qeyri-rəsmi inhisarçılıq problemi həm hökumət rəsmilərinin həm də özəl sahibkarların daimi müzakirə mövzusu olmuşdur. "Inhisarçılıq" terminin mahiyyəti rəqabətlik üçün nüfuzlu əlaqələr vasitəsilə təmin olunan qeyri-rəsmi məhdudiyyət kimi səciyyələndirilir. Yüksək rütbəli hökumət rəsmiləri ilə yaxşı münasibətdə olan biznes nümayəndələri çox zaman biznesin səmərəli şəkildə qurulması və inkişaf etdirilməsi üçün əhəmiyyət kəsb edən hökumət qurumlarına təsir edərək müxtəlif yerli bazarlara çıxışı mədudlaşdırırlar. Bu təsir açıq aydın şəkildə və ya əsasən güzəştli rejim vasitəsilə göstərilir ki, burada "güzəşt təmin edilmiş" sahibkarlar digər bazar iştirakçılarının üzləşdiyi bürokratik problemlər ilə üzləşmir. Bu isə rəqabətliyə mənfi təsir göstərir və iqtsadi inkişafı və yeni iş yerlərinin yaradılması prosesini ləngidir. Bütün sahibkarlar üçün bərabər şəraitin yaradılması dayanıqlı, sağlam və inkişaf edən iqtisadiyyat üçün böyük əhəmiyyət kəsb edir, bu isə öz növbəsində məşğuliyyətlik səviyyəsinin artması ilə nəticələnir.

### Tövsiyə

Hökumət ədalətsiz rəqabətliyi müəyyən edən və onların aradan qaldırılması üçün mexanizmləri təyin edən Rəqabətlik haqqında yeni məcəlləni qəbul etməli və onun qüvvəyə minməsini təmin etməlidir.

## 03 Məhkəmə sisteminin müstəqilliyi və toxunulmazlığı

Ədalətli və obyektiv məhkəmə sistemi güclü sərmayəçiyə münasibətdə əlverişli iqtisadiyyatın inkişafı üçün böyük əhəmiyyət kəsb edir. Azərbaycanın məhkəmə sistemi də korrupsiyanın geniş yayıldığı, kənar təsirə məruz qalan və rüşvətxorluq halları müşahidə olunan bir sistem kimi qiymələndirilməyə davam edir. Məhkəmə sistemi barədə formalaşan ümumi fikir real fakt qədər əhəmiyyət kəsb edir. Yerli məhkəmələrin kənar təsirlərə məruz qalması ilə bağlı fikrin özü potensial sərmayəçilərin (yəni işə götürənlərin) burada sərmayə yatırmamalarına səbəb olması üçün kifayətdir. Təəsüf ki, Azərbaycanda məhkəmə sistemində yalnız korrpusiya halları geniş yayılmamışdır, burada hakimlərin məhkəməyə cəlb edilmiş tərəflərdən və ya üçüncü tərəflərdən göstəriş və ya ödənişləri qəbul etmələri kimi bir sıra mənfi hallar da müşahidə olunur.

Son dörd il ərzində bu problemləri və formalaşmış fikirləri aradan qaldırmaq üçün çoxlu sayda müsbət addımlar atılmışdır. Onlardan ən əhəmiyyətlisi isə ondan ibarətdir ki, hal-hazırda yeni hakimlər rəqabət qabiliyyətli xidmətlərə əsalanan imtahan prosesi vasitəsilə seçilir. Mütəşəkkil, yüksək səviyyəli təlimlər ilə müşahidə olunan xidmətlərə əsalanan sistem Azərbaycanda məhkəmə sisteminin müstəqilliyini təmin etmək üçün çox uzun yol keçməli olacaq. Bu islahatların üstünlüklərini artırmaq üçün, hökumət hakimlərin seçim prosesində şifahi imtahan mərhələsinin şəffaflığının artırılması və məhkəmə sisteminin qiymətləndirilməsində və nizam-intizam qaydalarının şəffaflığının artırılması üçün müvafiq addımlar ataraq irəliləməlidir.

### Tövsiyələr

- Bütün hakimlər maliyyə məlumatlarının açıqlanmasına dair sənədləri tərtib etməlidir və bu tələbin yerinə yetirilməsi üçün addımlar atılmalıdır.
- Ictimaiyyət üçün bütün məhkəmə proseslərinə və məhkəmə qərarlarına açıq çıxış təmin edilməlidir.
- İlkin olaraq, ABŞ tərəfindən təmin olunan maliyyələşdirmə hesabına yaradılmış qanunvericiliyə dair məlumat bazası tam istismar vəziyyətində olmalı və yeniləşdirilməlidir.
- Məhkəmə qərarları ədalətli şəkildə vaxtlı-vaxtında icra edilməlidir.
- Hakimlər üçün maraqların toqquşmasına dair ciddi qaydalar tərtib edilməli və icra olunmalıdır.
- Məhkəmə sisteminin müstəqilliyinə dair Avropa Şurası standartlarına tam uyğunluq təmin edilməlidir.

# Qeydlər üçün

Nizami küçəsi 96, Landmark binası
AZ 1000 - Bakı, Azərbaycan
Tel.: (994 12) 497-13-33
Faks.: (994 12) 497-10-91
chamber@amchamaz.org
www.amchamaz.org